Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Swiss Confederation

EDF
SBIIYF

Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)
İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi

**“Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması” layihəsi**

“Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasının “**Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru**” istiqaməti üzrə

# Tədqiqat işi: **“Azərbaycan iqtisadiyyatının rəqabətliliyinin təmin edilməsində struktur islahatlarının istiqamətləri”**

**Prof. R.T.Həsənov**

Bakı - 2016

**MÜNDƏRİCAT**


| | |
|---|---|
| Giriş ........................................................................................ | **3** |
| 1. Milli iqtisadi sistemlərin rəqabətliliyi: mahiyyət və əsas dominantların inkişafa təsiri xüsusiyyətlərinin qiymətləndirilməsinin dünya təcrübəsi .......................................... | **4** |
| 2. Azərbaycan iqtisadiyyatında rəqabətliliyin funksional və institutsional daşıyıcılarının "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası kontekstində qarşılıqlı təsirləri .................... | **18** |
| 3. Qlobal iqtisadi inkişafın çağırışları fonunda milli iqtisadiyyatın rəqabətliliyi meyarları və struktur transformasiyası istiqamətləri .......................................................... | **21** |
| Nəticə və tövsiyələr .......................................................................... | **33** |

# GİRİŞ

**Mövzunun aktuallığı.** XX əsrin sonunda Dövlət müstəqilliyinin bərpasından sonra, Azərbaycan Respublikasında Dövlət quruculuğunun çox mühüm tərkib hissəsini milli müstəqilliyi yaşatmağa qadir olan bütöv milli iqtisadi sistemin formalaşdırılması təşkil etmişdir. Belə milli iqtisadi sistemin formalaşdırılması məsələsi, mövcud mürəkkəb şəraitə rəğmən, bir neçə mühüm çərçivə şərtləri daxilində həll edilməli olmuşdur. Ən mühüm ağırlaşdırıcı şərtlər, davam edən xarici hərbi müdaxilə və daxili siyasi xaosun qarşısının alınması və onların iqtisadi inkişafa təsirlərinin kompensasiya edilməsi hesab edilir. Növbəti vacib amillər, iqtisadi inkişaf paradiqmasının seçimini şərtləndirən faktorlardır. Fikrimizcə bu tipli təsiredici şərtlərə əsaslı islahatlarının metod və vasitələrinin seçimi şərtləri aid edilə bilər. Nəhayət milli iqtisadi sistemin formalaşdırılmasının şərtləndirən amillərə həmçinin, dünya iqtisadiyyatında baş verən qlobal çağırışları aid etmək məqsəduyğundur. Hesab olunur ki, qeyd olunan şərtlərin nəinki hər biri ciddi tədqiqat mövzusu ola bilər, hətta bu şərtlərin tərkib hissələri və ya alt çağırışları da ayrıca tədqiq edilməlidir. Bu baxımdan qlobal iqtisadi inkişafın çağırışlarına bilavasitə həsr olunan seçilmiş tədqiqat mövzusu olduqca aktualdır.

Tədqiqat mövzusunun aktuallığı bir neçə istiqamət üzrə identifikasiya edilə bilər. Əvvəla qlobal iqtisadi məkanın formalaşdığı, istehsalın beynəlmiləlləşməsinin sürətlə dərinləşdiyi indiki şəraitdə, milli iqtisadi sistemlərin beynəlxalq rəqabətliliyinin mühüm qiymətləndirici göstəriciyə çevirilməsinin təsirləri, digər tərəfdən beynəlxalq rəqabətliliyin milli iqtisadi sistemin fəaliyyətinin səmərəliliyinin artırılması üçün vacib vasitəyə çevirilməsi və nəhayət, beynəlxalq iqtisadi münasibətlərdə geoiqtisadi yanaşmanın aktuallaşdığı indiki şəraitdə beynəlxalq rəqabətliliyin "iqtisadi resursa" çevrilməsi, mövzunun aktuallığını daha da möhkəmləndirir.

Dünya inkişafının geoiqtisadi paradiqmasının hakim mövqelərə keçməsi şəraitində beynəlxalq rəqabətqabiliyyətlilik, milli iqtisadiyyatların həyat qabiliyyətliliyini, geoiqtisadi məkandakı mövqelərinin əlverişlilik dərəcəsini ən dolğun əks etdirən göstəriciyə çevrilir. Təsadüfi deyil ki, bu gün dünya ölkələri ilk növbədə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini yüksəltməyə çalışır. Əksər ölkələrdə bu məqsədlə xüsusi qurumlar yaradılır. Azərbaycanda da ölkənin beynəlxalq rəqaətqabiliyyətliliyinin yüksəldilməsi prioritet vəzifə hesab olunur. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ifadə olunduğu kimi, Azərbaycanın qarşısında duran mühüm, hətta belə demək mümkündürsə, başlıca vəzifə ölkənin beynəlxalq rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və uzunmüddətli dövr üçün dayanıqlı, yüksək mövqenin təmin edilməsidir.

**Tədqiqatın konsepsiyası.** Milli iqtisadi sistemin beynəlxalq rəqabət qabiliyyətliliyi, kompleks göstərici olaraq, mövcud resursların effektiv istifadəsi və yüksək məhsuldarlığının təmin edilməsi yolu ilə, milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişaf qabiliyyətini, əhalinin yüksələn rifahı ilə birləşdirmək imkanı ilə müəyyən olunur.

Ölkənin beynəlxalq rəqabət qabiliyyətliliyin yüksəldilməsi sosial-iqtisadi həyatın bütün sferalarında effektiv, sistemli tədbirlərin reallaşdırılmasını tələb edir. Rəqabət qabiliyyətliliyin yüksəldilməsi üçün ilk növbədə, ölkənin rəqabətqabiliyyətlilik amillərinin obyektiv qiymətləndirilməsi, o cümlədən, əsas rəqabətqabiliyyətlilik parametrlərinin dinamikasının təhlili, milli iqtisadi inkişaf strategiyasının - "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası konteksində xarakterinin, iqtisadiyyatın strukturunun inkişaf və harmonikliyi potensialının qiymətləndirilməsi vacibdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi- mövcud beynəlxalq rəqabət qabiliyyətlilik metodikalarının yanaşma və parametrlərinin milli iqtisadi sistemə uyğunluğunun qiymətləndirilməsi vasitəsi ilə, Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətliliyinin kompleks təhlili əsasında, qlobal və "Azərbaycan 2020: gələcəyə baxış" Konsepsiyasının çağırışları nəzərə alınmaqla, mili iqtisadi sistemin strukturunun təkmilləşdirilməsi vəzifələrinin müəyyənləşdirilməsi kimi seçilmişdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutlmuşdur:

- Rəqabətqabiliyyətliliyin qiymətləndirilməsinin mövcud metodikalarında istifadə olunan parametrlərin milli iqtisadi sistemə uyğunluğunun qiymətləndirilməsi;
- Azərbaycanın beynəlxalq rəqabətqabiliyyətliliyinin dinamikasının xüsusiyyətlərinin, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin güclü və zəif tərəflərinin aşkar edilməsi;
- Azərbaycanın beynəlxalq rəqabətqabiliyyətliyini formalaşdıran amillər sisteminin müasir şəraitdə inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsində rəqabətliliyinin yüksəldilməsi istiqamətləri və vəzifələrinin müəyyənləşdirilməsi üzrə tövsiyələrin formalaşdırılması.

# 1. Milli iqtisadi sistemlərin rəqabətliliyi: mahiyyət və əsas dominantların inkişafa təsiri xüsusiyyətlərinin qiymətləndirilməsinin dünya təcrübəsi

Qlobal inkişaf mərhələsində, bazar iqtisadi münasibətlərinin mütləq üstünlüyü, istehsalın transmilliliyinin dərinləşməsi və iqtisadi açıqlığın yüksək səviyyəsi şəraitində ölkələrin beynəlxalq rəqabət qabiliyyətliliyinin nisbi qiymətləndirilməsini ehtiva edən, Dünya İqtisadi Forumu (DİF) tərəfindən "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"nda verilən Qlobal Rəqabətqabiliyyətlilik İndeksləri və Lozanna "Menecmentin İnkişafı Beynəlxalq İnstitutu" tərəfindən hazırlanan "Dünya Rəqabətqabiliyyətlilik İlliyi"ndə

göstərilən reytinqlər ayrı-ayrı ölkələrdə inkişafın xarakteri və sürətini ifadə edən "universal" alətə çevirilmişdir.

1986-cı ildə ilk dəfə Lozanna MİBİ tərəfindən DİF–in iştirakı ilə ilk "Dünya Rəqaqbətqabiliyyətlilik Hesabatı" hazırlanmışdır. 1996-cı ildən başlayaraq bu qurumlar fərqli metodikalar üzrə müstəqil tədqiqatlar aparır və nəticələri iki nəşr- Davos DİF tərəfindən hazırlanmış "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı" və Lozanna MİBİ tərəfindən hazırlanmış "Dünya Rəqabətqabiliyyətlilik İlliyi" kimi dərc olunur.

2000-ci ildə Qlobal Rəqabətlilik İndeksinin hesablanması metodikasına dəyişikliklər olundu. Prof. C. Saks iqtisadi artım nəzəriyyəsinə əsaslanan "Artım Rəqabətqabiliyyətliliyi İndeksi", prof. M.Porter isə mikroiqtisadi amilləri nəzərə alan və mikro səviyyədə rəqabətqabiliyyətliliyi qiymətləndirməyə imkan verən "Biznesin Rəqabətqabiliyyətliliyi İndeksi"nin hesablanması üçün metodika yaratdılar. 2004-cü ildən prof. Xavier Sala-i-Martin rəqabət qabiliyyətliliyin makro və mikro iqtisadi amillərini özündə birləşdirən "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi"ni təklif etdi. 2008-ci ilə qədər bu indeks "Biznesin Rəqabətqabiliyyətliliyi İndeksi" ilə birgə dərc olunurdu. 2008-ci ildən prof. M.Porterin rəhbərliyi altında bu iki indeksi birləşdirən vahid "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi"nin hesablanması metodikası yaradıldı. Bu indeks milli iqtisadiyyatın təmin edə biləcəyi məhsuldarlıq həddinin determinantları əsasında hesablanır.

DİF Qlobal rəqabətqabiliyyətlilik indeksinin hesablanması üçün əsasən iqtisadi artımı müəyyən edən 111 makroiqtisadi, sosial və s. meyardan istifadə edilir. Bu meyarlar əsasında 3 subindeksin hesablanmasi üçün istifadə olunan, 12 indikator müəyyənləşir. Hesablamaların məlumat bazası kimi BVF və DB-nın şərhləri də daxil olmaqla statistik məlumatlar (Hard date criteria) və DİF tərəfindən icraedicilərin rəy sorğusu proqramı çərçivəsində aparılan sorğunun nəticələri (Executive Opinion Survey) istifadə olunur. Yekun Qlobal Rəqabətlilik İndeksi (QRİ) bu üç subindeks əsasında hesablanır və iqtisadi fəaliyyətin mürəkkəbliyi və yetkinliyi baxımından 3 əsas və iki aralıq olmaqla 5 inkişaf mərhələsinə uyğun olaraq təsnifləşdirir: amil əsaslı, effektivlik əsaslı və innovasiya əsaslı, 1-ci mərhələdən 2-ci mərhələyə və 2-ci mərhələdən 3-cü mərhələyə keçid mərhələləri.

***Amil əsaslı*** inkişaf mərhələsində ölkələr baza amilləri adlanan, istehsal amillərinə, əsas hissəsi ixtisassız olan əmək qüvvəsi və təbii resurslara əsaslanaraq rəqabət aparırlar. Bu mərhələdə şirkətlər qiymətlərə görə rəqabət aparır və sadə məhsullar və ya əmtəələr satırlar. Buna görə də məhsuldarlıq, eləcə də əməkhaqqı aşağı səviyyədə olur. Bu mərhələdə rəqabətliliyin təmin edilməsi dövlət və özəl institutların fəaliyyəti, müvafiq infrastrukturun mövcudluğu, dayanıqlı makroiqtisadi çərçivə və əlverişli səhiyyə və ibtidai təhsil sistemlərinin hesabına gerçəkləşir. İnkişaf prosesi davam etdikcə, əmək haqqı səviyyəsində də artım baş verir ki, bu da ölkənin ***effektivlik əsaslı*** inkişaf mərhələsinə keçidini realizə edir. Bu mərhələdə artıq daha səmərəli və yüksək məhsuldarlıqlı istehsal prosesinin inkişaf etdirilməsi zəruridir. Bu mərhələdə rəqabətliliyin aparıcı amillərini ali təhsil və peşə hazırlığı, əmtəə bazarlarının effktivliyi, əmək bazarlarının effektivliyi, inkişaf etmiş maliyyə bazarları, mövcud texnologiyaların

üstünlüklərindən istifadə edə bilmək imkanları və bazarların ölçüsü təşkil edir. İnkişafın sonuncu mərhələsində, ölkə ***innovasiya əsaslı*** mərhələyə keçid edir ki, bu mərhələdə biznes subyektlərinin yeni və unikal əmtəələr istehsal edə bilmək bacarığı, ölkədə yüksək əməkhaqqı və həyat standartlarının formalaşmasına şərait yaradır. Ona görə də bu mərhələdə şirkətlər ən mürəkkəb istehsal prosesləri vasitəsilə yeni və müxtəlif əmtəələrin istehsalı və innovasiyalar hesabına rəqabət aparırlar. Amillərin ölkə üzərindəki təsirləri inkişaf səviyyəsindən asılı olaraq dəyişir. Buna görə də, QRİ-nin hesablanması zamanı elementlər üzrə çəkilər adambaşına düşən gəlir səviyyəsindən asılı olaraq fərqli olur. Məsələn, yektinlik və innovasiya amilləri, amil və effektivlik əsaslı inkişaf mərhələsində olan ölkələrin yekun göstəricilərində 10%-lik paya, innovasiya əsaslı inkişaf mərhələsində olanlarda isə 30%-lik paya malikdir. Keçid iqtisadiyyatına malik olan ölkələrdə isə bu göstəricilərin aralıq qiymətlərindən də istifadə edilir.

Qlobal Rəqabətlilik Hesabatının mühüm elementi olan İcraedicilərlə Rəy Sorğusu, 150 sualı əks etdirməklə, milli iqtisadi durumu və iqtisadiyyatın davamlı artım imkanlarını qiymətləndirmək üçün illik ölçü aləti rolunu oynayır. Sorğu vasitəsilə statistik məlumatların az olduğu və ya olmadığı geniş spektrli parametrlər haqqında dəyərli informasiya əldə edilir.

**İqtisadi inkişaf mərhələləri üzrə subindekslərin çəki əmsalları**

| İqtisadi inkişaf mərhələsi* | Amillər mərhələsi | 1-dən 2-ə keçid mərhələsi | İnvestisiyalar mərhələsi | 2-dən 3-ə keçid mərhələsi | İnnovasiyalar mərhələsi |
|---|---|---|---|---|---|
| Adambaşına düşən ÜDM ($) | 2000-dən az | 2000-2999 | 3000-8999 | 9000-17000 | 17000-dən çox |
| Baza şərtləri | 60 % | 40-60 % | 40% | 20-40 % | 20 % |
| Effektivliyi artıran şərtlər | 35 % | 35-50 % | 50 % | 50 % | 50 % |
| İnnovasiyalar və biznes mühiti | 5 % | 5-10 % | 10 % | 10-30 % | 30 % |

***)** *Təbii ehtiyatlardan çox güclü asılı ölkələr üçün adambaşına düşən ÜDM ölkənin inkişaf mərhələsini müəyyən edən əsas meyar kimi götürülmür*

Qeyd etmək lazımdır ki, 2011-2012-ci il hesabatından başlayaraq 1-ci mərhələdən 2-ə və 2-ci mərhələdən 3-ə keçid mərhələsində olan ölkələr üçün subindekslərin çəki əmsalları fərdi olaraq, ölkənin iqtisadi vəziyyəti nəzərə alınmaqla müəyyən olunur. Məsələn, Azərbaycan üçün bu çəki əmsalları aşağıdakı kimi götürülmüşdür:

**Azərbaycanın çəki əmsalları (%)**

| | I subindeks | II subindeks | III subindeks |
|---|---|---|---|
| **2011-2012** | 51.8 | 41.1 | 7.0 |
| **2012-2013** | 53.9 | 39.6 | 6.5 |
| **2013-2014** | 54.9 | 38.8 | 6.3 |
| **2014-2015** | 56.3 | 37.8 | 5.9 |
| **2015-2016** | 55.9 | 38.1 | 6.0 |

Göründüyü kimi, ölkəmizin mövqeyi investisiyalar mərhələsindən amillər mərhələsinə geriləmişdir ki, bu da iqtisadiyyatın təbii ehtiyatlardan asılılıq səviyyəsinin azalmaması ilə əlaqədardır.

DİF tərəfindən beynəlxalq rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi üçün tətbiq olunan metodikanın təhlili göstərir ki, götürülən meyarlar indekslərin hesablanması zamanı ölkələrin iqtisad inkişaf səviyyəsini maksimum nəzərə almağa imkan verir. Həqiqətən də, amillərin müxtəlif ölkələrin iqtisadi inkişafına təsiri də eyni ola bilməz. Bu səbəbdən də, tətbiq olunan metodikada rəqabət qabiliyyətinə daha çox təsir edən meyarların çəki əmsalları yüksək götürülür.

Metodikanın çatışmayan cəhəti isə fikrimizcə, iqtisadi inkişafa mühüm təsir göstərən bir sıra göstəricilərin nəzərə alınmamasıdır. Məsələn, ***xarici ticarət, xarici investisiyalar, ölkə iqtisadiyyatının açıqlıq dərəcəsi göstəriciləri rəqabət qabilyyətliliyin müəyyən edilməsi zamanı çox az istifadə olunur,*** halbuki, bu amillərin ölkə iqtisadiyyatının cari və perspektiv inkişafına çox ciddi təsiri mövcuddur. Xarici ticarət kvotası və ÜDM haqqında məlumatlar yalnız 2013-2014-cü il hesabatında istifadə olunmağa başlamışdır.

Lozanna "MİBİ" tərəfindən hazırlanan DRİ-də isə ölkələrin rəqabətqabiliyyətlilik reytinqini hesablamaq üçün ölkənin iqtisadi inkişaf səviyyəsini dövlət siyasətinin, biznesin, əmtəə bazarının və menecmentin effektivliyini, infrastrukturun vəziyyətini, texnoloji inkişafı, ölkədə elm, təhsil və səhiyyənin vəziyyətini, ətraf mühitin mühafizəsi səviyyəsini xarakterizə etməyə imkan verən çoxlu sayda göstəricidən istifadə olunur. 2015-ci ildə hesabatın hazırlanması üçün ölkələrin rəqabət qabiliyyətliliyini müəyyən edən 342 göstərici istifadə edilmişdir. Bunlardan 83-ü iqtisadiyyatın inkişaf səviyyəsini, 73-ü dövlət siyasətinin effektivliyini, 71-i biznesin, əmək bazarının və menecmentin effektivliyini, 115-i isə infrastrukturun vəziyyətini, texnoloji inkişafı, elm və təhsilin, səhiyyənin və ətraf mühitin mühafizəsinin vəziyyətini əks etdirir. "Qlobal Rəqabətqabiliyyətlilik İlliyi"ndə məhdud sayda ölkələr üzrə qiymətləndirmə aparılır. 2012-ci ilin hesabatında 59, son 2015-ci il hesabatında isə 61 ölkənin müqayisəli rəqabətqabiliyyətliliyi verilir və bu ölkələr sırasında təəssüf ki, Azərbaycan yoxdur. ***BMİ tərəfindən aparılan tədqiqatın əsasında bu fikir dayanır ki, ölkənin sərvətləri müəssisə səviyyəsində yaradılır.*** Müəssisənin ölkə daxilində və eləcə də dünya bazarında rəqabət aparmaq imkanlarını isə onların fəaliyyət göstərdikləri milli sahibkarlıq mühiti müəyyən

edir. Təşkilat həmin amilləri (yuxarıda qeyd etdiyimiz 342 göstərici) rəqabətqabiliyyətliliyin müəyyən edilməsi prinsiplərinə uyğun olaraq dörd böyük qrupa ayrılır. Bu amillər qrupunun hər biri beş indikatora bölünür ki, bu indikatorların hesablanması üçün müxtəlif sayda meyarlar istifadə olunur.Onu da qeyd etmək lazımdır ki, bu metodikaya görə, göstərilən meyarların 75-i üzrə məlumatlar ölkələrin reytinqinin müəyyən edilməsi üçün aparılan hesablamalarda istifadə olunmur və yalnız məlumat xarakteri daşıyır. Dörd amillər qrupunda birləşmiş 20 indikatorun yekun nəticənin hesablanmasındakı çəki əmsalları bərabər - 5% götürülür.

DRİ-də ölkələrin ölkələrin rəqabətqabiliyyətlilik reytinqlərin hesablanması üçün iki növ məlumatlardan istifadə oluur. Bu məlumatlara beynəlxalq və yerli statistikaya əsaslanaraq toplanmış 131 meyarı əhatə edən məlumatlar və ölkədə fəaliyyət göstərən iri şirkətlərin top menecerləri arasında sorğu əsasında əldə olunan 123 meyarı əhatə edən məlumatlar daxildir. Yekun nəticə bu 254 meyar əsasında Standart Kənaraçıxma Metodu (Standart Deviation Method –SDM) ilə işlənir.

BMİ tərəfindən hazırlanan reytinq sıralamasının ***zəif cəhətləri*** reytinqlərin hesablaması zamanı inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələr üçün müxtəlif sferaları əks etdirən indikatorların çəki əmsallarının bərabər götürülməsi və reytinq sıralamasının az sayda ölkələr üçün aparılması, bu ölkələrin seçilməsi meyarlarının qeyri müəyyənliyidir. Müsbət cəhət isə hesablama üçün daha çox meyarın istifadə olunmasıdır. Xüsusilə, bu meyarlar arasında ölkənin iqtisadi inkişafı üçün böyük əhəmiyyətə malik olan xarici ticarət və xarici investisiyalar haqda məlumatların istifadəsi yekun nəticələrin mövcud olan real vəziyyətə uyğunluğunu təmin edir.

Davos DİF və Lozanna BMİ tərəfindən ölkələrin rəqabətqabiliyyətlilik indekslərinin hesablanması üçün istifadə olunan meyarların daha detallı müqayisəsi göstərir ki, hər iki təşkilat biri digərinin istifadə etmədiyi, ancaq ümumi rəqabət qabiliyyətliliyə mühüm təsir göstərən meyarları nəzərə almışdır. Məsələn, BMİ istifadə etdiyi meyarlar içərisində ÜDM, adambaşına düşən ÜDM, ÜDM-in artım tempi, tədiyyə balansının vəziyyəti, məşğulluqla, xarici ticarətlə, xarici investisiyalarla əlaqədar əlaqədar çoxlu sayda meyarlar DİF tərəfindən istifadə olunmur. Digər tərəfdən, DİF tərəfindən istifadə olunan və ölkənin investisiya iqlimini müəyyən edən və rəqabətqabiliyyətliliyə bilavasitə təsir göstərən innovasiyalar haqda məlumatlar BMİ tərəfindən istifadə olunmur. BMİ–nin istifadə etdiyi göstəricilərin bəzilərinin yekun rəqabətqabiliyyətlilik üçün əhəmiyyəti aydın deyil. Məsələn, ölkədəki Nobel mükafatçılarının sayı, yaxud parlamentdə qadınların sayı kimi göstəricilərin yekun rəqabətqabiliyiyyətliliyə necə təsir göstərdiyi aydın deyil.

### 1.1 . Azərbaycanın beynəlxalq rəqabətqabiliyyətliliyinin kompleks təhlili.

Yuxarıda qeyd etdiyimiz kimi, Lozanna BMİ tərəfindən hazırlanan "Dünya Rəqabətqabiliyyətlilik İlliyi"ndəki reytinq sıralamasındakı ölkələrin sayı çox məhduddur və bu ölkələr içərisində Azərbaycan yoxdur. Bu səbəbdən də Azərbaycanın beynəlxalq

rəqabətqabiliyyətliliyi Davos DİF tərəfindən hazırlanan "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"ndakı məlumatlar əsasında təhlil olunmuşdur.

2009-2016-cı illərdə "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"na görə, Azərbaycan beynəlxalq rəqabətqabiliyyətinə görə MDB ölkələri arasında həmişə lider olmuşdur.

**2009-2016- cı illərdə MDB ölkələrinin "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"nda mövqeləri**

| İllər | 2009 | | 2010 | | 2011 | | 2012 | | 2013 | | 2014 | | 2015 | | 2016 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Dövlətlər** | Bal | Yer | Bal | Yer | Bal | Yer | Bal | Yer | Bal | Yer | Bal | Yer | Bal | Yer | Bal | Yer |
| **Azərbaycan** | 4,3 | 51 | 4,3 | 57 | 4,3 | 55 | 4,5 | 40 | 4,6 | 37 | 4,4 | 46 | 4,5 | 39 | 4,5 | 38 |
| **Rusiya** | 4,2 | 63 | 4,2 | 63 | 4,2 | 66 | 4,4 | 45 | 4,5 | 43 | 4,2 | 67 | 4,3 | 64 | 4,4 | 53 |
| **Ukrayna** | 4,0 | 82 | 3,9 | 89 | 4,0 | 82 | 4,1 | 79 | 4,0 | 85 | 4,1 | 73 | 4,1 | 84 | 4,1 | 76 |
| **Moldova** | ---- | ---- | 3,9 | 94 | 3,9 | 93 | 4,0 | 84 | 3,9 | 100 | 3,9 | 87 | 3,9 | 89 | 4,0 | 82 |
| **Gürcüstan** | 3,8 | 90 | 3,9 | 93 | 3,9 | 88 | 4,2 | 66 | 4,3 | 59 | 4,1 | 77 | 4,2 | 72 | 4,2 | 69 |
| **Ermənistan** | 3,7 | 97 | 3,8 | 98 | 3,9 | 92 | 4,0 | 82 | 4,1 | 79 | 4,0 | 82 | 4,1 | 79 | 4,0 | 85 |
| **Qazaxıstan** | 4,1 | 67 | 4,1 | 72 | 4,2 | 72 | 4,5 | 42 | 4,4 | 53 | 4,4 | 51 | 4,4 | 50 | 4,4 | 50 |
| **Qırğızstan** | 3,4 | 123 | 3,5 | 121 | 3,5 | 126 | 3,8 | 102 | 3,7 | 111 | 3,4 | 127 | 3,6 | 121 | 3,7 | 108 |
| **Tacikistan** | 3,4 | 122 | 3,5 | 116 | 3,8 | 105 | 4,0 | 80 | 4,1 | 77 | 3,8 | 100 | ---- | ---- | 3,9 | 91 |

MDB ölkələrinin qlobal rəqabətqabiliyyətliliyin əsas blokları (subindekslər) üzrə göstəricilərinin təhlili isə göstərir ki, 2012-ci ildə qlobal rəqabət qabiliyyətliliyinin baza şərtləri blokunun göstəricisinə görə Azərbaycan Rusiyadan sonra ikinci, qalan illərdə isə birinci mövqedədir. İnnovasiyalar və biznes mühiti blokunun göstəricisinə görə ölkəmiz bütün bu dövr ərzində MDB ölkələri arasında birinci mövqeyini saxlayır. Effektivliyi artıran şərtlər blokunun göstəricilərinə görə isə Azərbaycan, Rusiya, Ukrayna və Qazaxıstandan sonra 4-cü, 2013-cü ildə isə Rusiya və Qazaxıstandan sonra 3-cü yerdə dayanır. Araşdırmalar göstərir ki, bu blokun göstərciləri: ali təhsil və peşə hazırlığı, əmtəə bazarlarının effktivliyi, əmək bazarlarının effektivliyi, inkişaf etmiş maliyyə

bazarları, mövcud texnologiyaların üstünlüklərində istifadə edə bilmək imkanları və bazarların ölçüsü çox vacib və cəmiyyət üçün əhəmiyyıtli olmasına baxmayaraq, ölkəmiz bu istiqamətlərdə sonrakı illərdədə fərdi mövqeyini pisləşdirmişdir.

**Azərbaycanın 2011-2016-cı illərdə "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi"nin hesablanmasında istifadə olunan əsas indikatorlar üzrə göstəriciləri**

| | İllər | 2011 | | 2012 | | 2013 | | 2014 | | 2015 | | 2016 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İndikatorlarlar | Bal | Yer | Bal | Yer | Bal | Yer | Yer | Bal | Yer | Bal | Yer | Bal |
| 1 | İnstitutlar | 3,8 | 68 | 4,0 | 63 | 4,1 | 59 | 4,0 | 60 | 3,9 | 64 | 4,2 | 48 |
| 2 | İnfrastruktur | 3,9 | 73 | 3,9 | 71 | 4,1 | 69 | 4,1 | 70 | 4,1 | 65 | 4,3 | 55 |
| 3 | Makroiqtisadi mühit | 5,9 | 16 | 6,0 | 18 | 6,4 | 8 | 6,4 | 9 | 6,4 | 10 | 5,2 | 39 |
| 4 | Səhiyyə və ibtidai təhsil | 5,1 | 105 | 5,1 | 107 | 5,1 | 109 | 5,2 | 104 | 5,2 | 102 | 5,7 | 75 |
| 5 | Ali təhsil və peşə hazırlığı | 4,0 | 75 | 3,9 | 89 | 4,0 | 87 | 3,9 | 90 | 3,9 | 89 | 4,2 | 78 |
| 6 | Əmtə bazarının effektivliyi | 4,1 | 79 | 4,3 | 60 | 4,3 | 71 | 4,3 | 72 | 4,3 | 66 | 4,5 | 50 |
| 7 | Əmək bazarının effektivliyi | 5,0 | 14 | 4,8 | 26 | 4,7 | 30 | 4,6 | 33 | 4,6 | 30 | 4,8 | 26 |
| 8 | Maliyyə bazarının yetkinliyi | 3,8 | 94 | 3,7 | 98 | 3,8 | 88 | 3,8 | 89 | 3,3 | 114 | 3,5 | 97 |
| 9 | Texnoloji hazırlıq | 3,6 | 74 | 4,0 | 61 | 4,2 | 50 | 4,3 | 56 | 4,3 | 57 | 4,5 | 55 |
| 10 | Bazarın ölçüsü | 3,5 | 75 | 3,5 | 76 | 3,6 | 72 | 3,7 | 72 | 3,9 | 67 | 3,9 | 63 |
| 11 | Biznes mühitinin yetkinliyi | 3,8 | 73 | 3,9 | 69 | 4,0 | 70 | 3,9 | 80 | 3,9 | 73 | 4,0 | 60 |
| 12 | İnnovasiyalar | 3,2 | 60 | 3,4 | 46 | 3,5 | 50 | 3,3 | 59 | 3,3 | 61 | 3,6 | 44 |

Göründüyü kimi, ölkəmizin beynəlxalq rəqabətqabiliyyətliliyinin bütövlükdə yüksəlməsi "Baza şərtləri" blokuna daxil olan "Makroiqtisadi mühit" indikatoru (2013-cü ildə 148 ölkə arasında 8-ci yer), "Effektivliyi artıran şərtlər" blokuna daxil olan "Əmək bazarının effektivliyi" indikatoru (2011-ci ildə 14-cü yer) və "İnnovasiyalar və biznes mühiti" blokuna daxil olan "İnnovasiyalar" indikatoru (2016-cı ildə 44-cü yer) hesabına baş vermişdir.

**2010-2016-cü illərdə Azərbaycanın Rəqabətqabiliyyətlilik meyarlarının dəyişməsi**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| Reytinqdəki ölkə sayı | 139 | 142 | 144 | 148 | 144 | 140 | 138 |
| **İnstitutlar** | | | | | | | |
| Mülkiyyət hüquqları | 90 | 90 | 87 | 81 | 91 | 101 | 71 |
| Əqli mülkiyyətin müdafiəsi | 63 | 60 | 53 | 69 | 80 | 92 | 71 |
| Büdcə vəsaitlərinin əsassız xərclənməsi | 88 | 95 | 86 | 83 | 77 | 82 | 60 |
| Siyasətçilərə ictimai inam | 45 | 45 | 47 | 43 | 46 | 47 | 34 |
| Qanunsuz ödənişlər və rüşvət | 101 | 118 | 110 | 87 | 85 | 87 | 79 |
| Məhkəmələrin müstəqilliyi | 87 | 83 | 86 | 93 | 99 | 101 | 85 |
| Məmurların qərar qəbulunda favoritizm | 64 | 60 | 43 | 41 | 55 | 58 | 43 |
| Dövlət xərclərində israfçılıq | 59 | 67 | 58 | 41 | 52 | 54 | 53 |
| İnzibati tənzimləmənin ağırlığı | 32 | 33 | 29 | 21 | 32 | 31 | 17 |
| Qanunvericiliyin mübahisələrin həllində effektivliyi | 94 | 95 | 76 | 64 | 60 | 63 | 43 |
| İnzibati tənzimləmələrsiz şikayətlər haqda qanunvericiliyin effektivliyi | 62 | 59 | 58 | 53 | 51 | 62 | 49 |
| Hökumətin siyasət işləməsində şəffaflıq | 58 | 68 | 49 | 43 | 48 | 55 | 41 |
| Biznesin terrorizmlə əlaqədar xərcləri | 62 | 48 | 55 | 53 | 48 | 42 | 32 |
| Biznesin cinayətkarlıq və zorakılıqla bağlı xərcləri | 46 | 47 | 52 | 21 | 15 | 21 | 20 |
| Mütəşəkkil cinayətkarlıq | 88 | 76 | 69 | 47 | 40 | 43 | 39 |
| Polis xidmətinin etibarlılığı | 95 | 86 | 80 | 65 | 71 | 70 | 75 |
| Korporativ etika | 67 | 64 | 69 | 66 | 64 | 60 | 47 |
| Audit və hesabat stantartlarının effektivliyi | 112 | 112 | 111 | 99 | 95 | 92 | 91 |
| Korporativ idarəetmənin effektivliyi | 102 | 96 | 69 | 66 | 82 | 91 | 96 |
| Miniritor payçıların maraqlarının müdafiəsi | 107 | 94 | 83 | 84 | 88 | 83 | 64 |
| İnvestorların müdafiə dərəcəsi | 20 | 20 | 24 | 25 | 22 | 50 | 36 |
| İnfrastruktur | | | | | | | |
| Ümumilikdə infrastrukturun keyfiyyət | 63 | 64 | 59 | 55 | 47 | 39 | 34 |
| Yolların keyfiyyəti | 70 | 78 | 67 | 74 | 69 | 70 | 50 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Dəmiryol infrastrukturunun keyfiyyəti | 34 | 34 | 35 | 36 | 37 | 39 | 29 |
| Liman infrastrukturunun keyfiyyəti | 70 | 73 | 78 | 60 | 63 | 59 | 59 |
| Hava nəqliyyatının infrastrukturunun keyfiyyəti | 59 | 57 | 53 | 48 | 44 | 41 | 36 |
| Hava nəqliyyatında istifadəyə yaralı yerlər | 91 | 87 | 84 | 84 | 85 | 83 | 84 |
| Elektrik təchizatının keyfiyyəti | 86 | 78 | 75 | 75 | 70 | 63 | 59 |
| Mobil telefon abunəçilərinin sayı | 79 | 75 | 64 | 78 | 79 | 78 | 81 |
| Stasionar telefon abonentlərinin sayı | 78 | 75 | 71 | 67 | 62 | 60 | 58 |
| **Makroiqtisadi mühit** | | | | | | | |
| Dövlət büdcəsi balansı (ÜDM nisbəti) | 4 | 3 | 5 | 15 | 15 | 16 | 74 |
| Milli əmanət norması (ÜDM nisbəti) | 11 | 6 | 8 | 10 | 9 | 8 | 37 |
| İnflyasiya (illik % dəyişimi) | 43 | 101 | 106 | 1 | 1 | 1 | 81 |
| Ümumi dövlət borcu (ÜDM nisbəti) | 9 | 11 | 12 | 13 | 12 | 14 | 41 |
| Ölkənin kredit reytinqi | 76 | 72 | 70 | 65 | 70 | 70 | 65 |
| Səhiyyə və ibtidai təhsil | | | | | | | |
| Malyariyanın biznesə təsiri | 99 | 89 | 82 | 83 | 14 | 14 | 14 |
| Malyariyaya yoluxma halları | 77 | 76 | 79 | 81 | 8 | 8 | 1 |
| Vərəmin biznesə təsiri | 93 | 96 | 100 | 85 | 81 | 85 | 80 |
| Vərəmə yoluxma halları | 91 | 93 | 97 | 100 | 92 | 79 | 85 |
| QİÇS –in biznesə təsiri | 100 | 89 | 65 | 38 | 69 | 69 | 69 |
| QİÇS-ə yoluxma halları | 55 | 21 | 12 | 11 | 1 | 1 | 1 |
| Uşaq ölümü | 100 | 99 | 106 | 111 | 102 | 99 | 101 |
| Gözlənilən ömür uzunluğu | 93 | 93 | 92 | 94 | 93 | 94 | 94 |
| İbtidai təhsilin keyfiyyəti | 109 | 122 | 113 | 111 | 106 | 106 | 81 |
| İbtidai təhsillə əhatə olunma | 49 | 116 | 117 | 117 | 104 | 105 | 68 |
| **Ali təhsil və treyninq** | | | | | | | |
| Orta təhsillə əhatə olunma | 12 | 29 | 82 | 39 | 35 | 33 | 32 |
| Ali təhsillə əhatə olunma | 98 | 90 | 90 | 93 | 91 | 91 | 94 |
| Təhsil sisteminin keyfiyyəti | 104 | 113 | 109 | 114 | 104 | 107 | 72 |
| Riyaziyyat və dəqiq elmlərin tədrisi keyfiyyəti | 101 | 99 | 99 | 110 | 108 | 104 | 80 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Məktəblərin idarə olunmasının keyfiyyəti | 124 | 125 | 123 | 134 | 124 | 121 | 89 |
| Məktəblərdə internetə çıxış imkanları | 77 | 88 | 79 | 72 | 69 | 68 | 56 |
| Tədqiqat və peşə hazırlığı xidmətləri | 66 | 59 | 49 | 69 | 79 | 82 | 69 |
| Personalın ixtisas artırması | 68 | 67 | 56 | 80 | 94 | 90 | 82 |
| **Əmtəə bazarlarının effektivliyi** | | | | | | | |
| Daxili rəqabətin intensivliyi | 134 | 133 | 131 | 128 | 121 | 120 | 115 |
| Bazarların inhisarlaşma dərəcəsi | 106 | 82 | 64 | 83 | 91 | 85 | 74 |
| Anti inhisar siyasətinin effektivliyi | 129 | 113 | 114 | 127 | 130 | 113 | 72 |
| Vergiqoymanın investisiya stimullaşdırılması üzərində effektivliyi | 76 | 72 | 49 | 76 | 82 | 74 | 51 |
| Məcmu vergi norması | 70 | 76 | 74 | 78 | 77 | 79 | 78 |
| Biznesə başlamaq üçün prosedur.sayı | 34 | 34 | 47 | 47 | 10 | 9 | 3 |
| Biznesə başlamaq üçün vaxt | 34 | 28 | 34 | 34 | 36 | 18 | 9 |
| Aqrar siyasətin reallaşdırılması xərcləri | 57 | 70 | 67 | 49 | 83 | 85 | 41 |
| Ticarət maneələri | 132 | 128 | 107 | 81 | 68 | 60 | 71 |
| Ticarət tarifləri | 82 | 83 | 86 | 86 | 87 | 88 | 89 |
| Xarici kapitalın iştirakı | 93 | 107 | 98 | 116 | 115 | 111 | 80 |
| BXİ-lərin tənzimlənməsinin biznesə təsiri | 82 | 99 | 87 | 68 | 81 | 89 | 84 |
| Gömrük prosedurlarının ağırlığı | 108 | 105 | 107 | 133 | 122 | 122 | 85 |
| İdxalın ÜDM-də payı | - | 135 | 131 | 133 | 126 | 125 | 97 |
| İstehlakçılara meyllənmə dərəcəsi | 102 | 73 | 56 | 59 | 69 | 70 | 63 |
| Alıcıların yetkinliyi | 41 | 33 | 20 | 26 | 30 | 25 | 31 |
| **Əmək bazarının effektivliyi** | | | | | | | |
| İşçi-işəgötürən münasibətlərində əməkdaşlıq | 55 | 47 | 37 | 48 | 66 | 74 | 50 |
| Əməkhaqqı müəyyənləşməsində elastiklik | 10 | 20 | 29 | 36 | 40 | 34 | 30 |
| İşə götürmə-işdən azad etmə təcrübəsi | 18 | 5 | 4 | 8 | 25 | 27 | 22 |
| İşdən azad etmə ilə əlaqədar xərclər | 11 | 42 | 96 | 101 | 101 | 100 | 97 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Əmək stimulları və vergiqoyma | 40 | - | - | 70 | 87 | 104 | 61 |
| Ödəniş və məhsuldarlıq | 39 | 33 | 20 | 23 | 34 | 37 | 34 |
| İdarəedici personalın professionallığı | 103 | 105 | 102 | 100 | 96 | 92 | 77 |
| Ölkənin istedadları saxlamaq imkanları* | - | - | - | 64 | 61 | 64 | 37 |
| Ölkənin istedadları cəlb etmək imkanları* | - | - | - | 34 | 34 | 32 | 27 |
| İşçi qüvvəsində qadınlar | 37 | 17 | 21 | 23 | 20 | 22 | 18 |
| **Maliyyə bazarlarının inkişafı** | | | | | | | |
| Maliyyə xidmətlərindən istifadə imkanları** | 102 | 98 | 119 | 108 | 92 | 81 | 51 |
| Maliyyə xidmətlərinin dəyəri | 68 | 65 | 70 | 73 | 77 | 75 | 52 |
| Daxili fond bazarından maliyyələşmə imkanı | 79 | 77 | 63 | 78 | 90 | 96 | 84 |
| Kredit götürmənin asanlığı | 66 | 69 | 57 | 54 | 79 | 79 | 101 |
| Vençur kapitalının əlçatanlığı | 48 | 54 | 59 | 52 | 64 | 71 | 48 |
| Bankların etibarlılığı | 114 | 135 | 133 | 112 | 100 | 103 | 98 |
| Qiymətli kağızlar bazarının tənzimlənməsi | 103 | 88 | 101 | 98 | 93 | 98 | 88 |
| Hüquqların müdafiəsi indeksi | 20 | 60 | 65 | 65 | 63 | 106 | 108 |
| **Texnoloji hazırlıq** | | | | | | | |
| Son texnologiyalardan istifadə imkanları | 81 | 87 | 81 | 65 | 63 | 54 | 53 |
| Firmaların texnologiyaları mənimsəməsi | 62 | 66 | 73 | 59 | 64 | 62 | 49 |
| BXİ və texnologiyaların ötürülməsi | 65 | 69 | 68 | 65 | 63 | 50 | 38 |
| İnternet istifadəçiləri | 53 | 73 | 56 | 59 | 55 | 54 | 33 |
| Stasionar genişzolaqlı internet | 92 | 68 | 54 | 47 | 42 | 45 | 45 |
| İnternet buraxılış imkanları | 66 | 68 | 61 | 45 | 58 | 70 | 74 |
| Mobil internet istifadəçiləri | - | - | 45 | 50 | 47 | 62 | 54 |
| **Bazar ölçüsü** | | | | | | | |
| Daxili bazarın ölçüləri | 84 | 80 | 78 | 77 | 75 | 70 | 64 |
| Xarici bazarın ölçüləri | 60 | 64 | 62 | 66 | 70 | 64 | 65 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ÜDM (AQP) | - | - | - | 69 | 70 | 63 | 63 |
| İxrac kvotası | - | - | - | 46 | 48 | 55 | 66 |
| **Biznes yetkinliyi** | | | | | | | |
| Yerli təchizatçıların keyfiyyəti | 95 | 107 | 90 | 94 | 90 | 79 | 80 |
| Yerli təchizatçıların miqdarı | 102 | 102 | 94 | 88 | 87 | 79 | 61 |
| Klaster inkişafının vəziyyəti | 88 | 80 | 68 | 75 | 99 | 97 | 69 |
| Rəqabət üstünlüklərinin təbiəti | 36 | 36 | 46 | 75 | 105 | 97 | 68 |
| Dəyər zəncirinin əhatəsi | 53 | 43 | 57 | 69 | 75 | 77 | 56 |
| Beynəlxalq bölüşdürməyə nəzarət | 47 | 76 | 79 | 56 | 65 | 46 | 42 |
| İstehsal prosesinin yetkinliyi | 53 | 69 | 61 | 50 | 61 | 55 | 46 |
| Marketinqin əhatə dairəsi | 81 | 90 | 85 | 68 | 66 | 75 | 71 |
| Səlahiyyətlərin ötürülməsinə razılıq | 87 | 85 | 65 | 77 | 79 | 77 | 76 |
| **İnnovasiya** | | | | | | | |
| İnnovasiya potensialı | 40 | 52 | 39 | 35 | 43 | 53 | 42 |
| Elmi-tədqiqat institutlarının keyfiyyəti | 77 | 87 | 65 | 78 | 87 | 89 | 68 |
| Şirkətlərin elmi-tədqiqat işlərinə xərcləri | 88 | 83 | 44 | 56 | 80 | 71 | 38 |
| Universitet–sənaye əməkdaşlığı | 92 | 106 | 82 | 84 | 104 | 103 | 54 |
| Üstün texnologiyaların dövlət satınalması | 36 | 24 | 19 | 14 | 18 | 12 | 14 |
| Alim və mühəndislərin olması | 78 | 56 | 44 | 49 | 63 | 54 | 41 |
| Hər 1 mln. adama düşən patent müraciəti | 90 | 90 | 79 | 79 | 75 | 75 | 80 |

**) Əvvəlki illərdəki reytinq hesabatlarında bu iki göstərici əvəzinə yalnız bir göstərici- Beyin axını (brain drain) istifadə edilirdi ki, bu göstərici üzrə Azərbaycanın reytinqi müvafiq olaraq 94 (2010), 78 (2011) və 70 (2012) olmuşdur.*

***) 2016-2017-ci il hesabatında bu göstərici "Biznes ehtiyaclarını ödəyən maliyyə xidmətləri" adı altında qeyd edilmişdir.*

İndikatorların müəyyən olunması üçün istifadə olunan meyarlar üzrə göstəricilərin daha ətraflı təhlili aşağıdakı qənaətləri çıxarmağa imkan verir. Məsələn, yuxarıda qeyd edildiyi kimi, "Makroiqtisadi mühit" indikatoruna daxil olan meyarlar üzrə ölkəmizin mövqeyi kifayət qədər yüksəkdir və bu indikator renkinq yanaşmasının tətbiq edildiyi bütün son dövr ərzində ölkəmizin yekun mövqeyini şərtləndirən əsas

parametr hesab edilə bilər. Doğrudur, bu göstəricinin pisləşmə dinamikası narahatlıq yaradır və ona görə də hesab edirik ki, yaranmış şəraitin bütün şərtləndirici amillərinə rəğmən, hökumətin bu parametri formalaşdıran amillərə diqqətinin artırılması zəruridir. Lakin burada bir sıra digər məqamlara diqqət yetirilməsini də zəruri hesab edirik. İlk növbədə bu meyarı təmin edən göstəricilərin ümumi yekuna paylarının müəyyənləşdirilməsində fikrimizcə qeyri- dəqiqlik vardır. Məsələn, Azərbaycanın bu göstərici üzrə mövqeyinin 2015-ci ildəki 10-cu yerdən 2016-cı ildəki 39-cu mövqeyə düşməsinin əsas səbəbləri fikrimizcə, inflyasiya və dövlət borcu göstəricilərinin kəskin pisləşməsidir. Bu göstəricilər isə daha çox monetar mahiyyət daşıyır və iqtisadi stabilliyin fiskal təminediciləri ilə nisbətən daha az qarşılıqlı təsirlərə malikdir. Eyni zamanda inteqral göstərici kimi ölkənin kredit reytinqinin aşağı volatilliyinin makroiqtisadi mühitin digər tərkib elementlərinin kəskin volatilliyi ilə uzlaşmaması belə qənaətə gəlməyə sövq edir ki, yekun qiymətləndirmədə monetar amillər daha böyük təsirliliyə malikdir. Hesab edirik ki, bütövlükdə QRİ-nin dəyərləndirilməsində bu məqama xüsusi diqqət yetirilməsi vacibdir. Fikrimizcə formalaşmaqda olan bazar və ya transformasiya xarakterli iqtisadiyyata münasibətdə belə "monetarist" yanaşma ədalətli deyildir.

"Əmək bazarının effektivliyi" indikatorunun hesablanması üçün istifadə olunan meyarlardan yalnız üçü üzrə ölkəmizin mövqeyi aşağıdır: "Əmək stimulları və vergiqoyma" (97-ci yer), İdarəedici personalın ixtisaslılığı" (77-ci yer) və "İşdən azad etmə ilə əlaqədar xərclər" (61-ci yer). Qalan meyarlar üzrə mövqe kifayət qədər yüksəkdir və bu da həmin indikator üzrə ölkənin yerinin kifayət qədər yüksək olmasını şərtləndirir (26-cı yer). Lakin qeyd etməyi məqsədə müvafiq hesab edirik ki, bu göstərici üzrə əldə olunmuş mövqenin, iki alt göstərici "İşləyənlər arasında qadınların payı" (18-ci yer) və "İşə götürmə-işdən azad etmə təcrübəsi" (22-ci yer) əsasında formalaşması faktı, bütövlükdə bu indikatorun obyektivliyini şübhə altına salır.

"İnnovasiyalar və biznes mühiti" blokuna daxil olan "İnnovasiyalar" indikatoru renkinq dövründə fikirmizcə xeyli yaxşılaşmışdır. (2011-ci ildəki 60-cı yerdən, 2016-cı ildə 44-cü yerə qədər). Sonuncu ildə bu göstəricinin ümumi mövqeyinin formalaşmasına daha sürətlə yaxşılaşan "Üstün texnologiyaların dövlət satınalması" (14-cü yer), "Şirkətlərin elmi-tədqiqat işlərinə xərcləri" (38-ci yer) parametrləri bir tərəfdən dövlətin və biznesin innovasiya və texniki tərəqqiyə önəm verdiyini təzahür etdirir, digər tərəfdən isə Azərbaycan iqtisadiyyatının gələcək inkişaf potensialını formalaşdırır.

Ümumən xeyli yaxşılaşmış (2011-ci ildə 68-ci yer, 2016-cı ildə 48-ci yer) "İnstitutlar" indikatoruna daxil olan parametrlər üzrə əsas mənfi təsir göstəriciləri "Korporativ idarəetmənin effektivliyi" (2016, 96-ci yer), "Audit və hesabat standartlarının effektivliyi" (2016, 91-ci yer) ," Məhkəmələrin müstəqilliyi" (2016, 85-ci yer), Müsbət təsir göstəriciləri isə - "İnzibati tənzimləmənin ağırlığı" (2016, 17-ci yer), "Biznesin cinayətkarlıq və zorakılıqla bağlı xərcləri" (2016, 20-ci yer), "Biznesin terrorizmlə əlaqədar xərcləri (2016, 31-ci yer) və "İnvestorların müdafiəsi dərəcəsi" (2016, 36-cı yer, baxmayaraq ki, bu göstərici 2011-ci ilə nisbətən xeyli (20 yer) pisləşmişdir) göstəriciləridir. "Mülkiyyət hüquqları", "Əqli mülkiyyətin müdafiəsi", "Polis xidmətinin etibarlılığı" və "Minoritar payçıların hüquqlarının müdafiəsi" kimi meyarlar üzrə də Azərbaycanın göstəriciləri arzu olunmaz dərəcədə aşağıdır (60–cı yerdən aşağı).

Bütövlükdə bu qrupa daxil olan parametrlərin 2011-ci ildə cəmi 5-i ilk yarıda idi, 2016-cı yerdə isə 12 göstərici ilk yarıda yerləşmişdir.

"Əmtəə bazarının effektivliyi" indikatoru təhlil dövrü ərzidə xeyli yaxşılaşmışdır. Bu indikatora daxil olan göstəricilərdən "Biznesə başlamaq üçün prosedur sayı" (3-cü yer), "Biznesə başlamaq üçün tələb olunan vaxt" (9-cu yer) və "Alıcıların mükəmməlliyi" (31-ci yer) üzrə ölkəmizin yeri xüsusi ilə yüksəkdir. Bununla belə bu indikatora daxil olan meyarlardan aşağıdakılar ölkənin yekun rəqabət qabiliyyətliliyini aşağı salır: "Gömrük prosedurlarının ağırlığı" (85), "Antiinhisar siyasətinin effektivliyi" (72), "Ticarət maneələrinin böyüklüyü" (71), "Xarici kapitalın iştirakı" (80), "İdxalın ÜDM-də payı" (97) və s. Bütövlükdə isə qeyd etməyi məqsədə müvafiq hesab edirik ki, bu indikatorun qiymətləndirilməsi yekunları da mahiyyətə təsir baxımından inamsızlıq yaradır. Belə ki, fikrimizcə, iqtisadi sistemin xarakteri və rəqabətliliyi baxımından çox güclü təsirləri olan "Məcmu vergi norması" (78), "Daxili bazarda rəqabətin intensivliyi" (115) kimi göstəricilər üzrə arzu olunmayan mövqeyə baxmayaraq, "Əmtəə bazarının effektivliyi" indikatoru son illərdə yaxşılaşmaqdadır.

"İnfrastruktur" indikatoruna daxil olan meyarlar üzrə ölkəmizin mövqeyini orta qiymətləndirmək olar. Bu göstəricilərdən "Ümumilikdə infrastrukturun keyfiyyəti" (34-cü yer), "Dəmir yol infrastrukturunun keyfiyyəti" daha yüksək (29-cü yer), "Hava nəqliyyatının infrastrukturunun keyfiyyəti" (36-cı yer) xüsusi ilə yüksək hesab edilə bilər. "Hava yollarında əlçatan yerlərin miqdarı (km/həftə)" isə aşağıdır (84–cü yer) və bu xeyli suallar yaradır.

Azərbaycanın rəqabət qabiliyyətliliyi üçün ən problemli indikatorlar, bu dövrdə ənənəvi olaraq "Maliyyə bazarının yetkinliyi" (97-ci yer), "Ali təhsil və peşə hazırlığı" (78-ci yer) və "Səhiyyə və ibtidai təhsil" (75-ci yer) indikatorlarıdır. Fikrimizcə, inkişafın potensialı və onun perspektivləri üçün çox önəmli hesab olunan bu parametrlərin tezliklə yaxşılaşdırılması hökumətin diqqət mərkəzində olmalıdır. Bu indikator üzrə mövqenin aşağı olmasının əsas səbəbləri "Kredit götürmənin asanlığı" (101-ci yer), "Bankların etibarlılığı" (98-ci yer) və "Hüquqların müdafiəsi indeksi" (98-ci yer), "Qiymətli kağızların dövriyyəsinin tənzimlənməsi" (101-ci yer), "Uşaq ölümü" (101-ci yer), "Gözlənilən ömür uzunluğu" (94-cü yer) "Ali təhsillə əhatə olunma dərəcəsi" (94-cü yer), "Məktəblərin idarə olunmasının keyfiyyəti" (89-cu yer) və s. meyarlarıdır. Hesab edirik ki, sonuncu parametrlərin hər biri olduqca vacibdir və mövcud vəziyyət qənaətbəxş sayıla bilməz.

Beləliklə, Qlobal rəqabət qabiliyyətliliyin qiymətləndirilməsi üçün istifadə olunan meyarların təhlili göstərir ki, Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətliliyinin yüksəlməsinə mane olan əsas amillər səhiyyə, təhsil, bank–maliyyə və idarəetmə sahəsində formalaşmış xüsusiyyətlər və çatışmazlıqlardır.

# 2. Azərbaycan iqtisadiyyatında rəqabətliliyin funksional və institutsional daşıyıcılarının "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası kontekstində qarşılıqlı təsirləri

## 2.1 Azərbaycan 2020: strateji baxış və əsas prioritetlər

Bütövlükdə geniş əhatə dairəsinə malik olan Konsepsiyanın başlıca strateji məqsədi, mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olunması kimi təyin olunmuşdur. Son iki on illikdə milli dövlət quruculuğu və iqtisadi inkişaf sayəsində əldə olunmuş uğurlar fonunda bu məqsəd təbii və real görünür. Nəzərdə tutulur ki, Konsepsiayanın realizasiyası nəticəsində, 2020-ci ildə Azərbaycanın mövqeyi, rəqabət qabiliyyətli ölkə olmaqla BMT -nin İnsan İnkişafı üzrə təsnifatına əsasən "yüksək insan inkişafı" ölkə sıralanmasında yüksələcəkdir. Hesab olunur ki, Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində dövrün sonuna ölkədə adambaşına düşən ÜDM-in həcmi iki dəfə artaraq 13000, qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcmi isə 1000 ABŞ dollarına çatacaqdır.

Göstərilən məqsədə çatmaq üçün bazar iqtisadiyyatı şəraitində sağlam rəqabəti təmin edən səmərəli dövlət tənzimləməsi, enerjidən səmərəli istifadə edən və yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya və sosial iqtisadi sahələrin inkişafına kompleks yanaşma prinsipləri əsas tutulacaqdır.

Konsepsiya çərçivəsində istehsal amillərinin ümumi məhsuldarlığının artımı nəticəsində ölkə iqtisadiyyatının səmərəliliyə əsaslanan iqtisadiyyata çevrilməsi və innovasiyaların üstünlüyü ilə səciyyələndirilən mərhələyə keçidin təmin olunması hədəflənir. İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması makroiqtisadi sabitliyin qorunması, monetar və fiskal siyasətin koordinasiyasının gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və özəl təşəbbüsün dəstəklənməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi kimi istiqamətləri özündə cəmləşdirir. Bu dövrdə inflyasiyanın məqbul səviyyədə saxlanılması, daha çevik məzənnə rejiminə tədrici keçid nəzərdə tutulur. Eyni zamanda, məqsədyönlü şəkildə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi tədbirləri həyata keçiriləcəkdir. Neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ticarət və xidmət fəaliyyəti növlərinin genişləndirilməsi və inkişaf etdirilməsi, xarici ticarətin və investisiyaların strukturunun təkmilləşdirilməsi prioritet istiqamətlər olacaqdır. Konsepsiyanın əhatə etdiyi dövr ərzində qeyri-neft sektoru üzrə ÜDM-in orta illik real artım tempinin 7 faizdən yüksək

olması nəzərdə tutulur. İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi ölkədə biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaradacaqdır. Konsepsiyada həmçinin nəzərdə tutulur ki, iqtisadi artım, ölkədə sosial rifahın yüksəlməsi və insan kapitalının prioritetli inkişafını, o cümlədən, təhsil və səhiyyədə keyfiyyətin yüksəldilməsini təmin edəcəkdir.

Beləliklə Konsepsiyada, iqtisadi inkişaf sahəsində ən mühüm və qlobal hədəf, Azərbaycanda yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasıdır. Konsepsiyada bu hədəflərə nail olunması məqsədi ilə 3 istiqamət müəyyənləşdirilmişdir:

- **Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması**

Bu istiqamətdə Konsepsiya çərçivəsində qarşıya qoyulan konkret sosial-iqtisadi siyasətin əsas hədəfləri aşağıdakılar hesab edilə bilər:

✓Keçid dövrünün başa çatması və yetkin bazar münasibətlərinin formalaşması şəraitində dövlət tənzimləməsi və idarəetməsi funksiyalarının, əsasən, makroiqtisadi sabitliyin qorunub saxlanılması, ölkədə işgüzar mühitin təkmilləşdirilməsi və sərbəst rəqabətin təmin olunması, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi yönündə tənzimləmə tədbirləri və s. istiqamətləndirilməsi;

✓Makroiqtisadi siyasətin koordinasiyasının gücləndirilməsi, maliyyə dayanıqlığı baxımından optimal makro-fiskal çərçivənin formalaşdırılması, inflyasiya hədəfinə uyğun pula tələbatın ödənilməsi və s.

✓Qiymətli kağızlar bazarının institusional inkişaf səviyyəsinin yüksəldilməsi, iqtisadiyyatda kapitallaşma dərəcəsinin yüksəldilməsi və fond bazarı vasitəsilə cəlb olunan qeyri-inflyasiya mənşəli investisiya vəsaitlərindən istifadənin genişləndirilməsi və s.

✓Maliyyə xidmətləri bazarının əsas seqmentlərinin (bank sektoru, qeyri-bank kredit təşkilatları, sığorta bazarı, lizinq bazarı, qiymətli kağızlar bazarı və faktorinq bazarı) tarazlı inkişafı təmin ediləcəkdir.

***Belə tədbirlər, özlüyündə müsbət hesab edilsə də, fikrimizcə, qarşılıqlı uyğunsuzluq müşahidə olunur.*** Beləki, əvvəla dövlətin, *makroiqtisadi sabitliyi qorumaq, sərbəst rəqabəti təmin etmək və iqtisadiyyatın strukturunu təkmilləşdirmək səyləri*, yetkin bazar münasibətləri şəraitində onun iqtisadiyyata ciddi müdaxiləsi kmi yolverilməzdir. Eyni zamanda fikrimizcə, maliyyə dayanıqlığının təmin edilməsində optimal makro-fiskal çərçivənin formalaşdırılması, inflyasiya hədəfinə uyğun pula tələbatın ödənilməsi kimi hədəflər, bir tərəfdən iqtisadi siyasətdə monetar amilin rolunun qabardılması və bu şəraitdə təbii olaraq fiskal amilin və ya real iqtisadiyyatın tələblərinin ikinci plana ötürülməsi ilə tamamlanır. ***Digər tərəfdən, maliyyə dayanıqlığının təmin edilməsi, inflyasiya hədəfinə uyğun pula tələbatın ödənilməsi kimi mühüm keyfiyyət hallarını əldə olunması konkret addımlar vasitəsi ilə reallaşdırılmalıdır və məsələn ən həlledici***

***məqamı da məhz belə tədbirlərin düzgün seçimidir.*** Təəssüf ki, Konsepsiyada bu seçimin meyarları haqqında danışılmır. Həmçinin "iqtisadiyyatda kapitallaşma dərəcəsinin yüksəldilməsi və fond bazarı vasitəsilə cəlb olunan qeyri-inflyasiya mənşəli investisiya vəsaitlərindən istifadənin genişləndirilməsi" kimi hədəflərin iqtisadi mahiyyəti və realizasiyası tədbirlərinin açıqlanması və əsaslandırılması fikrimizcə, çox vacibdir.

**İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri -neft sektorunun inkişafı**

✓ Konsepsiyada neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin inşası, yenidən qurulması və modernləşdirilməsi nəzərdə tutulur. İqtisadiyyatın klaster əsasında inkişafı çərçivəsində neft, qaz emalı və neft kimya zavodlarından ibarət kompleksin inşası planlaşdırılır.

✓ Eyni zamanda qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədi ilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi genişləndiriləcək və onlardan istifadənin səmərəliliyi yüksəldiləcəkdir. Konsepsiyanın əhatə etdiyi dövr ərzində alternativ (bərpa olunan) enerji mənbələrindən istifadənin sürətləndirilməsi məqsədi ilə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, institusional mühitin inkişaf etdirilməsi, elmi-texniki potensialın gücləndirilməsi, mütəxəssis hazırlığının davam etdirilməsi və enerji istehlakçılarının maarifləndirilməsi istiqamətində işlərin aparılması planlaşdırılır. Bu sahədə dövlət tərəfindən həyata keçirilən layihələrlə yanaşı, özəl sektorun da bu prosesdə yaxından iştirakı təşviq ediləcək, alternativ enerji tariflərinin çevik tənzimlənməsi təmin ediləcəkdir.

✓ Qeyri-neft sektorunun inkişafına xidmət edən və müasir tələblərə cavab verən istehsal, sosial və bazar infrastrukturu şəbəkəsi yaradılacaq, təsərrüfatçılığın və idarəçiliyin mütərəqqi formalarından istifadə genişləndiriləcəkdir. Konsepsiyanın əhatə etdiyi dövrdə ölkədə polad istehsalı, neft-qaz emalı və neft-kimya kompleksləri, gübrə, gəmiqayırma və sement zavodları inşa ediləcəkdir. Alüminium sənayesi inkişaf etdiriləcək, ilkin alüminium istehsalı artırılacaq, özəl sektorun iştirakı ilə son məhsulun istehsalına qədər texnoloji zəncir qurulacaq, bu sahənin ixrac potensialı genişləndiriləcəkdir. Sənaye müəssisələrində innovasiya yönümlü texnologiyaların tətbiqi stimullaşdırılacaq, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərcikləri yaradılacaqdır. İqtisadi rayonlar üzrə sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması qeyri-neft emal sənayesinin inkişaf etdirilməsi ilə bağlı dövlət investisiya siyasətində əsas istiqamət olacaqdır. Bu baxımdan, hər bir iqtisadi rayonun potensialı nəzərə alınmaqla xüsusi iqtisadi zonalarının yaradılması və sənaye şəhərciklərinin (o cümlədən Sumqayıtda neft-kimya məhsullarının emalı, Balaxanıda məişət tullantılarının emalı və Gəncədə metal (alüminium) məmulatların istehsalı üzrə sənaye şəhərcikləri) qurulması mühüm addımlardır.

✓ Əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli şərait yaradılması və əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyatın davamlı inkişafı, ölkənin ÜDM-ində onun payının artırılması üçün tədbirlər həyata keçiriləcəkdir. Konsepsiya çərçivəsində turizm infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq standartlara cavab verən turizm xidmət sahələrinin dairəsinin genişləndirilməsi, bu sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi və ÜDM-

də xüsusi çəkisinin artırılması istiqamətində tədbirlər nəzərdə tutulur. Turizmin inkişaf etdirilməsi məqsədi ilə, Xəzər dənizinin turizm potensialından tam şəkildə istifadə edilməsi üçün zəruri tədbirlər görüləcək, bölgələrdə turizm fəaliyyəti stimullaşdırılacaq, informasiya təbliğat işi gücləndiriləcək, milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlər nəzərə alınmaqla turizmin müxtəlif növləri müvafiq turizm marşrutları yaradılmaqla təşviq ediləcəkdir.

✓ Qeyri-neft sənayesinin inkişafı və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetiriləcək, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və yeni belə müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir.

**Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi**

✓Uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, "bilik iqtisadiyyatı"nı formalaşdırmaq,elmtutumlu texnologiya və məhsul yaradılmasını sürətləndirmək məqsədi ilə innovasiya faliyyətinin genişləndirilməsi əsas istiqamətlərdən birini təşkil edəcəkdir.

✓Elmi infrastruktur təkmilləşdiriləcək, elmin maddi-texniki bazası müasirləşdiriləcək və informasiya təminatı sistemlərinin elektron formaya keçirilməsi təmin ediləcəkdir.

✓İnnovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafı üçün əlverişli mühit yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elm tutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılması da nəzərdə tutulur.

# 3. Qlobal iqtisadi inkişafın çağırışları fonunda milli iqtisadiyyatın rəqabətliliyi meyarları və struktur transformasiyası istiqamətləri

Müasir qlobal inkişaf trendləri sırasında mühüm əhəmiyyətə malik olan meyllərdən biri, iqtisadi fəaliyyətin səmərəliliyi və nəticəliliyinin qiymətləndirilməsinə ənənəvi yanaşmaların sürətli transformasiyası hesab edilə bilər. Məsələn elmi-texniki tərəqqinin bilavasitə nəticəsi olan iqtisadiyyatın vituallaşması, "bilik iqtisadiyyatı", "informasiya iqtisadiyyatı" kimi əslində ciddi mahiyyət dəyişiklərini ehtiva edən anlayışların, bu gün populyar iqtisadi kateqoriyalara, hətta qlobal iqtisadi inkişaf çağırışlarına çevirilməsi ənənəvi yanaşmaların transformasiyasını doğurmaqla, bütövlükdə iqtisadi fəaliyyət və onun idarə olunması siyasətinin fəlsəfəsini və paradiqmasını dəyişir. Proses o qədər dərinləşmişdir ki, artıq ***iqtisadiyyatın humanitar***

***xarakterinin gücləndirilməsi*** kimi, paradoksal görünən, lakin, ciddi məzmuna malik olan çağırışlar da yaranmaqdadır. Parodoksalllığı şərtləndirən amillər ondadır ki, zatən humanitar xarakter daşıyan iqtisadi fəaliyyət yeni yanaşmalar sayəsində özünün ilkin məzmunundan xeyli aralanmışdır. Bizim fikrimizcə, kəsilməz və dərinləşən ETT belə nəticələri, merkantilizmin primitiv, marjinal faydalılığın isə "simasızlaşmış" yanaşmalarından daha dərin və uzunmüddətli təsirə malikdir. Yeni yanaşmaların arzu olunmazlığını şərtləndirən amillərə gəldikdə isə, ilk növbədə iqtisadi inkişafın inersiyalılığı və kumilyativliyi, ETT-nin ekoloji tarazlığı kəskin pisləşdirməsi səbəblərindən bəşəri inkişafın maddi təminatına yaranan təhlükələri qeyd etmək gərəkdir. İnkişafın qlobal problemlərindən milli müstəviyə keçdikdə isə, hesab edirik ki, yuxarıda qeyd olunan qlobal çağırışların adekvat qarşılanmasının təmin edilməsinin ən vacib fəaliyyət istiqaməti hesab edilməsi zəruridir. Bu məqsədlə fikrimizcə, yeni ***milli iqtisadi inkişaf paradiqmasının*** formalaşdırılması son dərəcə vacibdir.

Milli iqtisadi inkişafın yeni paradiqmasının formalaşdırılması kifayət qədər mürəkkəb olmaqla yanaşı, geniş təsir determinantlarına malik olduğu üçün ayrıca məqsədyönlü araşdırmanı zəruri edir. Lakin indiki tədqiqat çərçivəsində müəyyənləşdirilmiş məqsədə müvafiq olaraq, həmçinin dünyanın müasir inkişaf meyllərinin, milli və qlobal inkişaf modellərinin, qlobal inkişafın perspektiv kəmiyyət və keyfiyyət terendlərini nəzərə alaraq milli iqtisadi inkişaf paradiqmasının aşağıdakı kimi mümkn variantını təkif edə bilərik.

Böyük ehtimalla, XXI əsrdə bütövlükdə iqtisadi inkişaf, yeni inqilabi keyfiyyət mərhələsinə keçəcəkdir. Qeyd etməyi vacib sayıram ki, iqtisadi inkişaf tarixində belə keçidlərin yaşandığını ekspertlər müxtəlif meyarlarla təsnif edirlər. Məsələn, inkişafın əsas daşıyıcılarını ETT olduğunu ehtiva edən yanaşma kimi 2016-cı il Davos Forumunda müasir keçid prosesi IV Sənaye İnqilabı adı ilə identifikasiya olunur: Buxar, su və mexaniki istehsalın təşəkkülü (1784-cü il); Əmək bölgüsü, elektrik və kütləvi istehsalın təşəkkülü (1870-ci il); Elektronikanın, İT və avtomatlaşdırılmış istehsalın təşəkkülü (1969-cu il) və müasir Kiber sistemlərin təşəkkülü kimi inkişaf mərhələləri istifadə olunur. İqtisadi siyasətin mahiyyəti baxımından isə biz belə keçidləri, *əmək bölgüsünün baş verməsi, manufakturalı istehsala keçid, daxiliyanma mühərriklərin kəşfi, dünya iqtisadiyyatının dünya təsərrüfat sisteminə transformasiyası, üstmilli tənzimləmə sistemlərinin formalaşdırılması, iqtisadiyyatın qloballaşması və virtuallaşması, istehsalın beynəlmiləlləşməsi* kimi keçidlərlə müqayisə etməyi məqsədə uyğun hesab edirik.

Yeni inkişaf mərhələsinin ən mühüm əlaməti fikrimizcə, milli iqtisadi sistemlərin qarşılıqlı asılılıqlarının güclənməsi ilə paralel olaraq, ***iqtisadi müstəqilliyinin əhəmiyyətli dərəcədə zəifləməsi*** olacaqdır. Bunun ilk və təsirli əlamətləri isə artıq 2008-ci ildən özünü aktiv şəkildə göstərməkdədir. Milli iqtisadi müstəqillliyin zəfləməsi isə, hesab edirik ki, iki istiqamətdə baş verəcəkdir: birinci istiqamət ***istehsalın xarakteri ilə bağlıdır***- istehsalda ənənəvi təbii ehtiyatların "ETT məhsulları" ilə əvəzlənməsinin sürətlənməsinin, "dəyər zəncirində" daha əlverişli mövqeyə malik olan ölkələr üçün müqayisəli üstünlüklər yaratması sayəsində, BƏB-in formalaşmış modelinin dayanıqlığı sürətlə azalır. Ona görə də, istehsal infrastrukturu daha çevik və texnoloji mobilliyi yüksək olan ölkələr aparıcı mövqeləri tutmaqla, digərlərini "haqlayıcı inkişaf" yoluna

sürükləyir. İkinci istiqamət *dünya iqtisadiyyatının "bütövləşməsi"* meyli ilə bağlıdır. TMK-lar, inteqrasiya birlikləri və beynəlxalq iqtisadi təşkilatların qloballaşma pərdəsi altında faktiki olaraq iqtisadi məkanı bütövləşdirməsi, milli iqtisadi sistemlərin müstəqilliyinin ciddi azalmasına gətirir. Belə perspektivdə, fikrimizcə, ***Azərbaycan kimi, "kiçik iqtisadiyyat"lı, lakin, zəngin resurslu, əlverişli geoiqtisadi mövqe və "əmək tutumlu mentalitetli" ölkələrin, qlobal çağırışları hədəf kimi yox, yönləndirici kimi*** qəbul etməsi çox vacibdir.

Beləliklə, yeni inkişaf mərhələsinin gözlənilən əsas trendinə rəğmən, ***Azərbaycanın perspektiv inkişaf paradiqması – təbii resurs inklüzivliyini ehtiva edən, "özünü inkişaf", konyuktur dəyişikliklərə adekvat və çevik reaksiya qabiliyyətli, makro səviyyəli idarətmə prinsipləri əsasında tənzimlənən, dayanıqlı, sosial strukturlaşmış iqtisadi sistemin formalaşması*** kimi olması məqsədəuyğun hesab edilir.

Belə paradiqma çərçivəsində inkişaf siyasətinin məqsədləri, vasitə və metodlarının seçimini müəyyənləşdirməklə yanaşı, onun realizasiyası ardıcıllığının, mexanizm və tədbirlər kompleksinin formalaşdırılması, nəticəliliyin əldə olunması baxımından mühüm mərhələdir. Hesab edirik ki, bu şərtlər daxilində ən vacib məsələ, yeni paradiqma çərçivəsində milli iqtisadi sistemin bütövlükdə və o cümlədən, kəsilməz iqtisadi inkişaf prosesinin nəticəliliyinə ciddi təsir göstərməyəcək dərəcədə, ardıcıl və sistemli islahatlaşdırılmasıdır. Dünya təcrübəsini, o cümlədən ÇXR, Malayziya, Türkiyə və s. kimi sıçrayışlı inkişafa nail olmuş ölkələrin təcrübəsini nəzərə aldıqda hesab edirik ki, yeni paradiqmanın formalaşdırılması üçün ilk və mühüm istiqamətlərdıən biri, iqtisadiyyatın strukturunun yeni inkişaf şəraitinə və qlobal çağırışlara uyğun təkmilləşdirilməsidir.

İqtisadiyyatın struktur yenidən qurulması- mahiyyət etibarı ilə iqtisadi inkişafın milli maraqların prioritetliyini nəzərə almaqla, texnoloji və sosial proqressin tələblərinə adekvatlığının təmin edilməsidir. Başqa sözlə bu, iqtisadiyyatın sahələrinin tərkibi və nisbətlərinin məqsəd yönlü dəyişdirilməsidir. Çünki, iqtisadiyyatın bazar yönlü transformasiyası, beynəlxalq rəqabətliliyin vacib elementi kimi, iqtisadi sistemin təşkilatı və maddi strukturunu təşkil edən institutsional əlaqələrin daimi adaptasiyasının tələb edir.

Digər tərəfdən məlumdur ki, milli iqtisadiyyatın rəqabətliliyinin formalaşdırılmasında mühüm yeri mikrosəviyyədə texnoloji dəyişikliklər tutur. Çünki, rəqabətqabiliyyətlilik - rəqabət mexanizminin faktorlar toplusunun, istehsal olunan məhsul və ya istənilən təsərrüfatçılıq subyektinin (müəssisə, sahə və ya ölkə) səmərəliliyinin tələb olunan səviyyəsi ilə ifadə olunan qarşılıqlı təsirləri ilə müəyyən olunur. Bu baxımdan iqtisadiyyatın rəqabət qabiliyyətliliyin təmin olunmasında istehsalın yenidən təşkili mühüm əhəmiyyətə malikdir. Məsələn, dünya təcrübəsində milli iqtisadiyyatın strukturunda istehlak və yığımın 75-25%-lik nisbəti iqtisadi artım üçün vacib hesab edilir. Lakin bir şox ölkələrdə bu nisbət ciddi fərqlənir və hesab olunur ki, onun rasional səviyyəsi yerli fakorlardan asılıdır.

Hazırda milli iqtisadiyyatın rəqabətliliyinin yüksəldilməsini təmin edəcək struktur yenidən qurmanın iki strategiyası daha məşhurdur *-sənayenin yeni qlobal*

***texnoloji çağırışlar əsasında üstün inkişafı və rəqabət siyasəti əsasında əsasında rəqabətliliyin yüksəldilməsi***. Birinci halda dövlət daha fəaldır, maliyyələşdirmə imkanları ilə struktur yaradıcı sahələrin müəyyənləşdirilməsini təmin edə bilər. İkinci yolla isə ayrı-ayrı sahibkarların təşəbbüsləri həlledici rol oynayır. Burada, A.Smitin "görünməz əli" funksiyasını oynayan azad rəqabət, təbii ki, həlledicidir. Lakin nəzərə almaq vacibdir ki, bu halda rəqabət strategiyası "mövcud imkanlara" əsaslanmaqla əhalinin rifahını təmin etmək gücündə olmaya bilər. Bu xüsusi ilə böhran zamanlarında özünü daha qabarıq göstərir. Bu variantı Azərbaycan üçün, yuxarıda qeyd edilmiş paradiqma prinsiplərinə görə məqbul hesab etmək fikrimizcə doğru olmazdı. Ümumiyyətlə, hesab edirik ki, iqtisadi inkişaf strategiyalarını hazırlarkən onun yaxın və uzaq, birbaşa və dolayı təsirlərinin mümkünlüyünü nəzərə almaqla yanaşı, inkişafın ən mühüm determinantının sosial mahiyyət olmasını heç bir halda unutmaq olmaz. Yəni inkişafın sosial mahiyyətini onun sürətinə, rəqabətliliyinə. müsbət təsirlərinə və s. qurban vermək olmaz.

Dünya təcrübəsi göstərir ki, struktur yenidən qurmanın şərh olunmuş strategiyalarının realizasiyası baxımından, bu iki istiqamətin birgə tətbiqinə əsaslanmaqla klaster yanaşması daha yaxşı nəticələr verə bilər. Klaster yanaşmalarının nəzəri əsaslarına, ilk növbədə M.Porterin məhşur 4 faktorlu rombu, E.Dahmenin "inkişaf blokları" nəzəriyyəsi aid edilir. Məsələn, Dahmen nəzəriyyəsi təsdiq edir ki, rəqabət üstünlüyünün yaranması bir sahənin inkişaf etməklə bərabər digər sahəni də inkişaf etdirə bilmək qabiliyyətininin mövcudluğudur. İnkişaf, mərhələli və ya "şaquli fəaliyyət" xarakterinə malik olmaqla, digər sahələrlə əlaqəli olan sahə daxilində baş verir və buna görə də rəqabət üstünlüyünü təmin edə bilir. Lakin, B. Feldmanın, müxtəlif ölkələrdə diversifikasiya təcrübələrinin təhlilnə əsaslanan klaster yanaşmasını ehtiva edən, müasir rəqabət nəzəriyyəsinə görə isə, diversifikasiya, "məhsul-buraxılış" matrisi bazasında klasterlərin yaranmasına əsaslanmalıdır. Eyni zamanda daha yüksək innovasiya fəallığına malik olan dayanıqlı və inkişaf potensiallı klasterlər diversifikasiya əsasında formalaşdırılır.

Qlobal iqtisadi mühitdə milli iqtisadiyyatın rəqabətlilik mövqeyi əsasən ölkənin sənaye siyasətinin xarakteri ilə bağlıdır. Belə siyasət - dövlətin mühüm funksiyası kimi struktur dəyişiklərinin əsasınada dayanmalıdır. Sənaye siyasətinin alətləri, mahiyyət baxımından, dövlətin struktur dəyişiklərini tənzimlənməsi alətləri sistemidir. Belə alətlər: istehsalın strukturuna, sahəvi və sahələrarası nisbətlərə birbaşa təsir edir; ölkənin sənaye potensialının balanslılığına, resursların rasional bölgüsü üçün zəruri şəraitin yaradılması və ya dəyişdirilməsi kontekstində dayanıqlı iqtisadi artımın təmin edilməsi, maddi və əmək resurslarının iqtisadiyyatın yeni və perspektivli sahələri arasında yenidən bölgüsü zamanı, kapitalın strukturlaşmasına, məhsulun keyfiyyətinin yüksəldilməsinə dolayı təsir edir.

Struktur dəyişikləri, ilk növbədə istehsalın strukturunda, iri, orta və kiçik müəssisələrin milli, regional və qlobal təsərrüfatçılıq əlaqələri sistemində çoxvariantlı yerləşdirilməsinə səbəb olacaq texnoloji dəyişiklərin aparılmasını nəzərdə tutur. Dünya təcrübəsində struktur dəyişiklərinin müsbət meyarı kimi yüksək əlavə dəyərə malik, texnoloji mürəkkəb məhsulların təkrar istehsal strukturunda payını artması qəbul edilir.

Elmi-texniki proqressin sürətləndirilməsi baxımından, inkişaf etmiş ölkələr üçün rəqabət mühitinin sürətli dəyişikliyi mühüm tədbirlərdən hesab edilir və bu iqtisadiyyatın rəqabətqabiliyyətliliyi ilə əlaqələndirilir.

Struktur dəyişikləri siyasəti, inkişaf etmiş ölkələrin iqtisadi siyasətlərinin mühüm elementi kimi, kompleks xarakterə malikdir, sənaye, investisiya, elmi-texniki siyasətləri, mülkiyyət münasibətlərini və s əhatə edir. İnkişaf etmiş ölkələrdə iqtisadi münasibətlərin liberallaşmasına baxmayaraq, struktur siyasətin formalaşdırılması və realizasiyası, dövlət idarəetmə sisteminin əhəmiyyətli tənzimləyici təsirlərinə məruz qalır. Struktur siyasətinin hazırlanması, elmi-texnoloji inkişaf konsepsiyasının formalaşdırılması, müəyyən təşkilati-iqtisadi formaların istifadəsi vasitəsi ilə milli iqtisadiyyatın strukturunun islahatlaşdırılması proqramlarının hazırlanması, idarəetmə strukturlarının yenidən təşkili və struktur islahatlaşdırılmasının təmin edilməsi məqsədi ilə normativ hüquqi bazanın təkmilləşdirilməsini əhatə edir.

Müasir dövrdə struktur siyasətinin əsas vəzifələri kimi aşağıdakılar nəzərdə tutulur: innovasiya yönlü sahələrə investisiyanın səmərəliliyinin yüksəldilməsi, yüksək əlavə dəyərə malik istehsal sahələrinin yaradılması, iqtisadiyyatın texnoloji səviyyəsini formalaşdıran yüksək texnoloji sahələrə investisiyaların cəlbi, müəssisələrin daha səməri idarə olunması, yeni və yüksək texnologiyaların mənimsənilməsi və s. İqtisadi tədqiqatlarda struktur siyasətinə iki yanaşma fərqləndirilir: evolyusiyalı- struktur disproposiyaların tədrici, mərhələli həlli və texnoloji sıçrayışlar vasitəsi ilə struktur-iqtisadi və texnoloji dəyişiklərin yeni keyfiyyət mərhələsinə keçidin təmin olunması.

Lakin bazar münasibətlərinin struktur siyasəti çərçivəsində prioritet hesab edilən yüksək texnoloji sahələrin inkişafının stimullaşdırılmasında qeyri-təkmilliyini nəzərə alaraq, bəzən struktur yenidənqurmanın ilk mərhələlərində yeni formalaşan sahələrin və onların əsas elementlərinin qorunması və milli inkişafın təmin edilməsi baxımından xüsusi şəraitin yaradılması məqsədi ilə qoruyucu strategiyalar tətbiq edilir. Prioritetlər toplusu, innovasiya sıçrayışının təmin edilməsi və qonşu sahələrdə multiplikator effekti yaradacaq strateji sahələrin seçilməsi yolu ilə müəyyənləşdirilir. İqtisadiyyatın liberallaşdırılması və yenidən qurulması, kiçik, orta və iri müəssisələrin inkişafına xidmət edən hüquqi tənzimləmə əsas istiqamətlər hesab edilir.

Müasir şəraitdə milli iqtisadiyyatlarda struktur dəyişiklərinin determinantları – inkişaf etmiş istehlak sektorunun formalaşdırılması, ictimai istehsalın struktur-texnoloji disbalanslılığının aradan qaldırılması, sahə və klasterlərdə investisiya resurslarının daha səmərəli istifadə olunması istiqamətlərinin müəyyənləşdirilməsi, onların yenidən təşkili və səmərəli restrukturizasiyası, sahibkarlıq sektorunun genişləndirilməsi, innovasiyaların kommersiyalaşdırılması hesab edilir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, müasir şəraitdə uzunmüddətli iqtisadi artım, struktur siyasətinin aşağıdakı prioritetlərinin hesabına təmin edilir: *(1)* sahələrin elmi-texniki inkişafının stimullaşdırılması; *(2)* yüksək texnoloji və ənənvi sahələrdə yeni və daha yüksək texnologiyaların tətbiqi; *(3)* investisiya fəaliyyətinin stimullaşdırılması; *(4)* institutsional dəyişiklər bazasında təkrar istehsal strukturunun restruktrizasiyasının təmin edilməsi; *(5)* əmək resurslarının istifadəsinin optimallaşdırılması və əmək

potensialının inkişaf etdirilməsi; *(6)* innovasiyaların tətbiqi vasitəsi ilə təsərrüfatçılıq subyektlərinin fəaliyyətində iqtisadi səmərəliliyin artırılması; *(7)* sahibkarlığın inkişafı.

Milli iqtisadiyyatda struktur dəyişiklərinin əsas istiqamətlərini aşağıdakılar kimi müəyyənləşdirə bilərik:

- Struktur dəyişiklər üçün zəruri makroiqtisadi şəraitin yaradılması, xarici birbaşa investisiyaların cəlbi, iqtisadi fəaliyyətin prioritet istiqamətlərin inkişaf etdirilməsi;
- Elm tutumlu yüksək texnoloji, ixrac yönümlü və idxal əvəzedici istehsal, xidmət sahələrinin inkişafı üçün imkanların yaradılması;
- Milli istehsalın islahatlaşdırılması, maliyyə-sənaye qrupları, xoldinqlər və digər təsərrüfatçılıq subyektlərinin birlikləri formasında, dövlətlər arası, regional sənaye strukturlarını yaradılması;
- Pul-kredit, büdcə-vergi, qiymət siyasəti, gömrük tənzimlənməsinin təkmilləşdirilməsi;
- Rəqabət mühitinin formalaşdırılması;
- İnsan kapitalının formalaşması və onun efffektiv istifadəsini təmin edə biləcək sosial-iqtisadi proqramların hazırlanması və realizasiyası

Azərbaycan iqtisadiyyatını strukturunun keyfiyyəti müəyyənləşdirə biləcək bəzi kəmiyyət göstəriciləri üzrə xarakteristkasını nəzərdən keçirək. İlk növbədə, bəzi beynəlxalq renkinq qiymətləndirmələrinin nəticələrini araşdırmağı məqsəd müvafiq hesab edirik.

✓ **Doing Business 2010-2017**-ci illərin sıralanmasına (183-190 ölkə) əsasən Azərbaycanın mövqeyi ümumən ciddi pisləşməyə məruz qalmışdır. Bu beynəlxalq renkinq sisteminin bütün qeyri-təkmilliyinə baxmayaraq, 3 il ərzində ölkənin 38-ci mövqedən 97-ci cərgəyə düşməsi və 2017-ci ildədə kifayət qədər arzuolunmaz hesab edilən 65-ci sırada proqnozlaşdırılması bəzi mülahizələr formalaşdırmağa imkan verir. İlk növbədə o qeyd edilməlidir ki, ***yaranmış şərait "Azərbaycan 2020: gələcəyə baxış" Konsepsiyasının "..2020-ci ildə Azərbaycanın mövqeyi, rəqabət qabiliyyətli ölkə olmaqla BMT -nin İnsan İnkişafı üzrə təsnifatına əsasən "yüksək insan inkişafı" ölkə sıralanmasında yüksələcəkdir.." kimi müəyyənləşdirilmiş və fikrimizcə, mühüm əhəmiyyətə malik olan strateji baxışlarına adekvat deyil.*** Digər tərəfdən, aşağıdakı cədvəldən aydın olur ki, biznes mühitinin qiymətləndirilməsində mühüm rol, bilavasitə biznes fəaliyyəti üçün dövlət və digər müvafiq strukturların sahibkarlara yaratdığı imkanlarla bağlıdır. Ona görə də, *kreditin əlçatanlığı, tikinti üçün icazələrin alınması* və *elektrik təhcizatı sisteminə qoşulma* göstəricilərinin nəticəliliyi təsirlərinin, *biznesə başlama, mülkiyyətin qeydiyyatı* kimi vacib, lakin fəaliyyətin təşkili baxımından formal mahiyyət daşıyan göstəricilərin təsirləri ilə müqayisədə daha yüksək olduğunu nəzərə aldıqda, renkinq sisteminin metodologiyasını, Azərbaycan üçün arzuolunmaz nəticələr verməsinə baxmayaraq bütövlükdə məqbul hesab etmək olar. Eyni zamanda, şərh olunan cədvəlin göstəriciləri və sonrakı fərqli istiqamətli araşdırmaların nəticələri, belə bir mülahizəni formalaşdırmağa imkan verir ki, ***iqtisadi siyasətin qiymətləndirilməsində aparıcı və ya təsiredici dominantların dinamikasına önəm verilməsi vacibdir.***

**Azərbaycanın Doing Business üzrə reytinq göstəriciləri**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| **Ümumi** | 38 | 54 | 66 | 97 | 70 | 80 | 61 | 65 |
| **Biznesə başlama** | 17 | 15 | 18 | 18 | 10 | 12 | 7 | 5 |
| **Tikinti üçün icazələrin alınması** | 158 | 160 | 172 | 177 | 180 | 150 | 114 | 127 |
| **Elektrik təchizatı şəbəkələrinə qoşulma** | 15 | - | 173 | 175 | 181 | 159 | 110 | 105 |
| **Mülkiyyətin qeydiyyatı** | 9 | 10 | 9 | 9 | 13 | 10 | 22 | 22 |
| **Kreditin əlçatanlılığı** | 15 | 46 | 48 | 53 | 55 | 104 | 109 | 118 |
| **Kiçik investorların maraqlarının qorunması*** | 20 | 20 | 24 | 25 | 22 | 51 | 36 | 32 |
| **Vergilərin ödənməsi** | 108 | 103 | 81 | 76 | 77 | 33 | 34 | 40 |
| **Sərhədlərarası ticarət** | 177 | 177 | 170 | 169 | 168 | 166 | 94 | 83 |
| **Müqavilələrin icrasının təmin edilməsi** | 26 | 27 | 25 | 25 | 28 | 31 | 40 | 44 |
| **Müflisləşmə prosesi** | 84 | 88 | 95 | 95 | 86 | 94 | 84 | 86 |

**) 2014-cü ilə qədər bu maddə "İnvestorların qorunması" kimi qeyd olunurdu.*

✓**Avropa Yenidənqurma və İnkişaf Bankı** 2015-2016- cı illərdə MDB ölkələri üçün iqtisadiyyatın sektorlar üzrə sənayeləşmə prizmasından tranzitivlik göstəricilərinin dəyişməsini qiymətləndirmişdir. Tranzitivlik göstəriciləri AYİB-in Baş İqtisadçısının Ofisi tərəfindən ölkələr üzrə keçid prosesinin ayrılıqda qymətləndirilməsi məqsədilə 1994-cü ildən etibarən hesablanır. Bu göstəricilər 1 və 4+ arasında qiymətləndirilir. Mərkəzi planlaşdırılmış iqtisadiyyatlara xas olan keyfiyyətlər və olduqca cüzi inkişaf ən aşağı səviyyə- "1" ilə qiymətləndirilir. Sənayeləşmiş bazar iqtisadiyyatlarına xas olan standartları özündə əks etdirən göstəricilər isə "4+" ilə qiymətləndirilir. "+" və "-" işarələri isə ölkələr üzrə olan göstəricilərə 0.33 əlavə eləmək və ya çıxmaqla əldə edilir. Bu əlavələr edildikdə, hər göstərici üzrə ortalama tapılır və son nəticədə qeyd olunur. AYİB-in bu metodologiyasına əsasən, hər hansı göstərici üzrə əgər nəticə 2.6 olsa bu, "2+" kimi, 2.8 olsa, "3-" kimi göstərilir. Cədvəldə verilmiş göstəricilərə əsasən ***Azərbaycanın mövqeyini heç də qənaətbəxş hesab etmək olmaz. Beləki, son 10-15 ildə dövlətin bəyan olunmuş iqtisadi siyasətinin hədəflərini, ölkəmizdə iqtisadi inkişafın yetərincə yüksək olması və neft gəlirlərinin böyük axınlarının iqtisadiyyatın transformasiyası üçün yaratdığı münbit maliyyə şəraitini nəzərə aldıqda, Azərbaycanın qeyd olunan göstəricilər üzrə vəziyyətini nəinki bütövlükdə, hətta MDB ölkələri arasında tutduğu yer baxımından təbii ki, qənaətbəxş hesab etmək olmaz.***

### 2015-ci il üzrə MDB ölkələri üçün sektorlar üzrə tranzitivlik göstəricisi

| | Korporativ sektor | | | | Enerji | | İnfrastruktur | | | | Maliyyə sektoru | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Aqrar | Ümumi sənaye | Daşınmaz əmlak | İKT | Təbii resurslar | Elektrik enerjisi | Su və kanaliza-siya | Şəhər nəqliyyatı | Yollar | Dəmiryol | Bank sisemi | Sığorta və mal.xidm | KOS mal-ləşməsi | Xüsusi kapital | Kapital bazarları |
| **Azərbaycan** | 2+ | 2 | 2 | 2- | 2+ | 2+ | 2- | 2 | 2+ | 2+ | 2 | 2 | 2 | 1 | 2- |
| **Belarus** | 2+ | 2 | 2 | 2 | 1 | 1 | 2- | 2 | 2 | 1 | 2 | 2 | 2 | 1 | 2- |
| **Ermənistan** | 3- | 3 | 3- | 3 | 2+ | 3+ | 3- | 2+ | 3- | 2+ | 2+ | 2 | 2+ | 1 | 2 |
| **Gürcüstan** | 3- | 3- | 3- | 3- | 2 | 3+ | 2 | 2+ | 2+ | 3 | 3- | 2 | 3- | 1 | 2- |
| **Qazaxıstan** | 3- | 2 | 3 | 3 | 2- | 3 | 2+ | 2+ | 3- | 3 | 2+ | 2+ | 2 | 2- | 2 |
| **Qırğızıstan** | 2+ | 2 | 2+ | 3 | 2- | 2+ | 2 | 2 | 2- | 1 | 2 | 2- | 2- | 1 | 2- |
| **Moldova** | 3- | 2- | 2+ | 3 | 3 | 3 | 2 | 3 | 3 | 2 | 2+ | 2+ | 2 | 2- | 2 |
| **Özbəkistan** | 2 | 1 | 2 | 2 | 1 | 2+ | 2- | 2 | 1 | 3- | 1 | 2 | 1 | 1 | 1 |
| **Rusiya** | 3- | 3- | 3- | 3+ | 2 | 3+ | 3 | 3 | 3- | 4- | 3- | 3- | 2 | 2+ | 4- |
| **Tacikistan** | 2 | 2- | 2- | 2+ | 1 | 2 | 2 | 2 | 2- | 1 | 2 | 2- | 2- | 1 | 1 |
| **Türkmənistan** | 1 | 1 | 1 | 2- | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2- | 1 | 1 | 1 |
| **Ukrayna** | 3- | 2+ | 3- | 3- | 2- | 3 | 2+ | 3- | 3- | 2+ | 3- | 2+ | 2+ | 2 | 2 |

Ölkə və ya sektor üzrə müsbət müş də Ölkə və ya sektor üzrə mənfi müşahidə

✓**Dünya Bankı İnstitutunun** 2015-ci il MDB ölkələrində "bilik iqtisadiyyatının" formalaşması üzrə analtik qiymətləndirmələri, bu iqtisadiyyatlarda texnoloji yenidən qurmanın mövcud potensialı və son illərdə aparılmış müvafiq siyasətin nəticəliliyi haqqında fikir söyləməyə imkan verir. Bilik İndeksləri, qlobal bilik iqtisadiyyatı mərhələsində ölkələrin mövqeyinin qiymətləndirilməsi məqsədilə formalaşdırılmış indikatorlardır. Bu göstəricilər Dünya Bankı İnstitutu tərəfindən Bilik Qiymətləndirmə Metodologiyası (Knowledge Assessment Methodology - KAM) əsasında hazırlanmışdır. Bu metodologiya əsasında iki göstərici – Bilik İndeksi (Bİ) və Bilik İqtisadiyyatı İndeksi (Bİİ) hesablanır. Bilik İndeksi ölkənin bilik yaratmaq, qəbul etmək və yaymaq qabiliyyətini ölçən iqtisadi göstəricidir. Metodoloji olaraq, Bilik indeksi, 3 bilik iqtisadiyyatı pilləsi: *təhsil və insan resursları, innovasiya sistemləri* və *informasiya-kommunikasiya texnologiyaları üzrə,* ölkə və ya regionların normallaşdırılmış orta çəkisi əsasında hesablanır. Bilik İqtisadiyyatı İndeksi (Bİİ) isə, iqtisadi inkişafın təmin edilməsi məqsədi ilə, biliyin effektiv istifadəsi üçün mühitin mövcudluğunu nəzərə almaqla hazırlanır. Bİİ, bilik iqtisadiyyatı üzrə hər hansı bir ölkə və ya regionun ümumi ortalama inkişaf səviyyəsini əks etdirən məcmu indikatordur. Bİİ, bilik iqtisadiyyatını əhatə edən 4 istiqamət: iqtisadi stimul və institusional rejim; təhsil və insan resursları; innovasiya sistemi və İKT üzrə ölkə və ya regionların normallaşdırılmış ortalama göstəriciləri əsasında hesablanır. Bu 4 sütunun seçimi isə aşağıdakı kontekstdə izah olunur: *İqtisadi*

*təşəbbüs və institusionl rejim* - mövcud və yeni biliklərin effektiv istifadəsi yolu ilə stimulların təmin edilməsi və sahibarlığın inkişaf etdirilməsi məsələlərini əhatə edir; *Təhsilli və ixtisaslı əhali* - biliyin yaradılması, bölüşdürülməsi və effektiv istifadəsi baxımından kritik önəm daşıyır; *İnnovasiya sistemi* - bu istiqamət müəssisələrin, tədqiqat mərkəzlərinin, universitetlərin, konsaltinq və digər strukturların sürətlə artan qlobal bilik bazasına çıxış imkanlarının vəziyyətini, bu biliyi yerli ehtiyaclara uyğunlaşdırmaqla yeni texnologiyaların yaradılması kimi məsələləri özündə ehtiva edir; *İnformasiya-kommunikasiya texnologiyaları* - bu istiqamət informasiyanın effektiv formada yaradılması, yayılması və emalını əhatə edir.

**MDB ölkələri üzrə Bilik İqtisadiyyatı İndeksi**

| | 1995 | | 2000 | | 2012 | |
|---|---|---|---|---|---|---|
| | Əhali sayı çəkisi nəzərə alınmaqla | Əhali sayı çəkisi nəzərə almadan | Əhali sayı çəkisi nəzərə alınmaqla | Əhali sayı çəkisi nəzərə almadan | Əhali sayı çəkisi nəzərə alınmaqla | Əhali sayı çəkisi nəzərə almadan |
| **Azərbaycan** | 4.62 | 4.56 | 3.61 | 3.60 | 4.56 | 4.56 |
| **Belarus** | 5.81 | 5.85 | 4.89 | 4.90 | 5.59 | 5.63 |
| **Ermənistan** | 5.25 | 5.01 | 5.57 | 2.27 | 5.08 | 4.88 |
| **Gürcüstan** | 5.10 | 4.90 | 4.67 | 4.51 | 5.19 | 5.01 |
| **Qazaxıstan** | 4.93 | 5.15 | 4.58 | 4.81 | 5.04 | 5.21 |
| **Qırğızıstan** | 4.42 | 4.30 | 4.42 | 4.29 | 3.82 | 3.74 |
| **Moldova** | 5.07 | 4.90 | 4.93 | 4.77 | 4.92 | 4.73 |
| **Özbəkistan** | 4.78 | 5.11 | 3.25 | 3.60 | 3.14 | 3.41 |
| **Rusiya** | 5.67 | 6.14 | 5.28 | 5.78 | 5.78 | 6.25 |
| **Tacikistan** | 4.13 | 4.03 | 3.18 | 3.17 | 3.13 | 3.08 |
| **Ukrayna** | 5.96 | 6.37 | 5.65 | 6.01 | 5.73 | 6.30 |

**İstiqamətlər üzrə Bilik İqtisadiyyatı İndeksləri**

Qeyd etmək vacibdir ki, Bilik İqtisadiyyatı İndeksi üzrə ən yaxşı dünya ölkələri

| | 1995 | | | 2000 | | | 2012 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **Azərbaycan** | **Dünya** | **Avropa və M. Asiya** | **Azərbaycan** | **Dünya** | **Avropa və M.Asiya** | **Azərbaycan** | **Dünya** | **Avropa və M.Asiya** |
| **Bilik İqtisadiyyatı İndeksi** | 4.62 | - | - | 3.61 | 5.95 | 7.56 | 4.56 | 5.12 | 7.44 |
| **Bilik İndeksi** | 5.59 | - | - | 4.25 | 6.06 | 7.84 | 4.96 | 5.01 | 7.64 |
| **İqtisadi Stimul Rejimi İndeksi** | 1.71 | 5.00 | 6.06 | 1.68 | 5.61 | 6.72 | 3.36 | 5.45 | 6.95 |
| **İnnovasiya İndeksi** | 4.97 | 7.91 | 8.41 | 3.38 | 7.75 | 8.38 | 4.01 | 7.72 | 8.28 |
| **Təhsil İndeksi** | 5.64 | - | - | 5.84 | 3.89 | 7.38 | 5.95 | 3.72 | 7.13 |
| **İKT İndeksi** | 6.17 | 7.16 | 8.20 | 3.54 | 6.53 | 7.78 | 4.93 | 3.58 | 7.50 |

İsveç (1-ci yer, 9.25), Finlandiya (2-ci yer, 9.09) və Almaniya (3-cü yer, 0.07) tutur. Ən yaxşı mövqeyə malik MDB üzvü olan ölkə- Rusiya 56-cı yerdə, Azərbaycan isə 81-ci yerdə qərarlaşmışdır. Göründüyü kimi Azərbaycan Bilik İqtisadiyyatı İndeksi üzrə üzrə, hətta MDB ölkələri arasında son dərəcə qeyri-qənaətbəxş mövqedədir və ən vacibi son 20 ildə bu mövqe demək olar ki, dəyişməz qalmışdır. Belə vəziyyət yenə də "Azərbaycan 2020: gələcəyə baxış" Konsepsiyasının məqsədlərinə və hədəflərinə müvafiq deyildir. Bilik İqtisadiyyatı İndeksi istiqamətləri üzrə göstəriciləri də ölkəmiz üçün yaxşı hesab edilə bilməz. Doğrudur iki alt göstərici üzrə- təhsil və İKT indeksi üzrə bizim mövqeyimiz 2012-ci ildə orta dünya səviyyəsini üstələmişdir. Lakin hesab edirik ki, bu üstünlükləri yetərli saymaq olmaz.

Beləliklə, Azərbaycan iqtisadiyyatının strukturunun rəqabətqabiliyyətlilik potensialı baxımından şərh olunan, beynəlxalq renkinqlər əsasında qiymətləndirilməsi, təəssüf ki, milli iqtisadiyyatın belə potensialının indiki halda yüksək olmadığını söyləməyə əsas verir. Mülahizələri dərinləşdirmək üçün milli iqtisadiyyatda sənaye istehsalının vəziyyəti və ÜDM-in strukturunda sənayenin iştirakının statistik mənzərəsini araşdırılmasını zəruri hesab edirik. Belə ki, yuxarıda qeyd edildiyi kimi milli rəqabətliliyinin təmin olunmasının ən mühüm determinantı ölkədə sənayenin inkişafını xarakteri ilə bağlıdır. Müxtəlif beynəlxalq təsnifatlara əsasən, sənaye kompleksinə 300-dən artıq sahə və alt sahə daxildir. Sənayenin dünya iqtisadiyyatında payı təqribən 30%-dir və dünya üzrə enerji istehlakının 40%-i bu sahənin payına düşür. BMT-nin Sənaye İnkişafı Təşkilatının hesablamaları sənaye emalında məşğul iqtisadi fəal əhalinin təxminən 12% olduğunu göstərir. Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən, dünyada sənayedə işləyənlərin sayı son 15 ildə 200 milyon nəfərdən çox artmışdır. Azərbaycan iqtisadiyyatında da sənaye, neftini sənaye üsulu ilə hasilatını inkişaf etməyə başladığı XIX əsrin sonlarından həmişə aparıcı sahə olmuşdur. Keçən əsrin 70-ci

illərindən başlayaraq sənaeynin strukturunda emal sənayesinin payını artırılması istiqamətində görülmüş sistemli tədbirlərə rəğmən ölkəmizdə sənayenin aparıcı rolu daha da dərinləşmişdir. Müstəqilliyinin ilk illərindən başlayaraq neft hasilatının daha önəmli mövqeyə yüksəlməsi isə, milli iqtisadi inkişafda nəinki sənayenin aparıcı, hətta həlledici dominanta çevirilməsi ilə nəticələnmişdir. Doğrudur təxminən 10 ilə yaxın müddətdə, qeyri-neft sənayesinin inkişafı, dövlətin iqtisadi siyasətdə elan etdiyi mühüm prioritetlərdən biri olmasına baxmayaraq, indiki dövrdə onun faktiki mövqelərini məqbul hesab etmək fikrimizcə düz olmazdı.

Araşdırmalarımız göstərir ki, Azərbaycan iqtisadiyyatında ümumi daxili məhsul istehsalının strukturunda əslində son 10 ildə ciddi dəyişiklər baş verməmişdir. Doğrudur mədənçıxarma sənayesinin payı 42.2%-dən 26.4%-ə qədər azalmış, tikinti, ticarət və s. kimi sahələrin payı isə artmışdır. Lakin bu dəyişikləri, keyfiyyəti dəyişdirə biləcək hesab etmək olmaz. Azərbaycan iqtisadiyyatında sənayenin inkişaf xarakeristkasını vermək üçün isə müstəqillik dövründə sənayenin strukturunun necə dəyişməsini nəzərdən keçirməyi vacib hesab edirik.

| | 1991 | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| **Mədənçıxarma sənayesi** | **7.2** | **19.6** | **53.4** | **67.4** | **78.9** | **80.5** | **78.8** | **77.2** | **73** | **67.0** |
| Xam neft və təbii qaz hasilatı | 6.8 | 19.4 | 46.7 | 63.8 | 76.4 | 78.0 | 76.2 | 74.1 | 69.6 | 60.3 |
| Xidmətlərin göstərilməsi | … | … | 6.6 | 3.3 | 2.1 | 2.1 | 2.2 | 2.7 | 3 | 6.1 |
| **Emal sənayesi** | **87.9** | **59.4** | **31.3** | **25.9** | **15.9** | **14.3** | **15.3** | **16.5** | **20.2** | **24.3** |
| Qida məhsullarının istehsalı | 24.8 | 9.7 | 1.9 | 2.4 | 1.5 | 1.5 | 1.5 | 1.7 | 2 | 2.5 |
| Toxuculuq sənayesi | 14.8 | 8.4 | 0.8 | 0.4 | 0.1 | 0.2 | 0,2 | 0.2 | 0.2 | 0.1 |
| Geyim istehsalı | 3.8 | 0.7 | 0.3 | 0.2 | 0.1 | 0.1 | 0.11 | 0.13 | 0.2 | 0.2 |
| Dəri məmumatlarının, ayaqqqabıların istehsalı | 1.4 | 0.4 | 0.09 | 0.05 | 0.08 | 0.06 | 0.1 | 0.1 | 0.1 | 0.1 |
| Neft məhsullarının istehsalı | 8.4 | 26.8 | 18.5 | 9.9 | 8.2 | 7.4 | 7.3 | 7.6 | 9.5 | 10.1 |
| Kimya sənayesi | 5.1 | 3.0 | 3.3 | 2.4 | 0.45 | 0.6 | 0.6 | 0.6 | 0.82 | 1.4 |
| Tikinti materiallarının istehsalı | 2.6 | 1.6 | 0.8 | 1.6 | 1.7 | 0.8 | 1 | 1.2 | 1.7 | 1.8 |
| Metallurgiya sənayesi | 3.7 | 1.2 | 0.1 | 2.0 | 0.5 | 0.6 | 1.1 | 0.9 | 0.9 | 0.9 |
| Elektrik avadanlığının istehsalı | 1.6 | 0.35 | 0.28 | 0.2 | 0.3 | 0.5 | 0.6 | 0.6 | 0.5 | 0.4 |
| Maşın və avadanlığın istehsalı | 6.8 | 2.2 | 1.0 | 0.4 | 0.6 | 0.5 | 0.5 | 0.8 | 0.9 | 0.8 |
| Mebellərin istehsalı | 7.6 | 0.1 | 0.09 | 0.2 | 0.2 | 0.14 | 0.13 | 0.14 | 0.1 | 0.2 |
| **El. enerjisi, qaz və buxar istehsalı, bölgüsü və təchizatı** | **4.6** | **19.2** | **13.6** | **5.7** | **4.6** | **4.7** | **5.3** | **5.6** | **6** | **7.7** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **0.3** | **1.8** | **1.7** | **1.0** | **0.6** | **0.5** | **0.6** | **0.7** | **0.8** | **1.0** |

1991-ci ildə bütün sənaye məhsulunun cəmi 7.2 %-i mədənçıxarma sənayesinin (o cümlədən neft-qaz hasilatının payı- 6.8%) payına düşdüyü halda, artıq 1995-ci ildə bu 19.6 % (neft-qaz hasilatı-19.4 %) olmaqla, 2000-ci ildə 53.4%, yəni ümumi həcmin yarıdan çoxu, 2005-ci ildə 67.4 % (63.8 %), 2011-ci ildə tarixi maksimuma 80.5 %-ə (78.0 %) çatmaqla, 2012-ci ildə ümumi həcmin üçdə ikisindən çox olmaqla 78.8(76.2)%, və 2015-ci ildə 67(60.3)% olmuşdur.

Həmin dövrdə müvafiq olaraq emal sənayesinin payı 87.9%-dən azalaraq, 2011-ci ildə 14.3%ə düşmüşdür. 2015-ci ildə isə bu 24.3% təşkil etmişdir. İlk baxışda göürünür ki, emal sənayesinin payı artır. Lakin nəzərə almaq vacibdir ki, bu artım neft emalı istehsalının payının 1991-ci ildəki 8.4%-dən 2015-ci ildə 10.1%-ə qədər artması ilə bağlıdır. Diqqət çəkən məqamlardan biri də onunla bağlıdır ki, emal sənayesində 1991-ci ildə 5.1% paya malik olan kimya sənayesinin xüsusi çəkisi 2010-cu ildəki tarixi 0.45% minumumdan sonra, 2015-ci ildə 1.4 %-ə qədər artmışdır. Lakin müstəqilliyimizin ilk illərində böyük çəkiyə malik olan mebel sənayesi (1991 il, 7.6 %) və maşın və avadanlıqların istehsalının həcmi (6.8 %) ,azalaraq müvafiq olaraq 2015-ci ildə cəmisi, 0.2 və 0.8% olmuşdur.

Doğrudur bu dövrdə sənayeyə yönəldilmiş investisiyaların strukturunda da adekvat mənzərə vardır. Belə ki, 2005-ci ildə sənayeyə yönəldilmiş ümumi investisiyanın 89.3% mədənəçıxarma sənayesinə və o cümlədən 86.3%-i bilavasitə neft-qaz hasilatı sahəsinə yönəldilmişdir. Emal sənayesinə isə cəmisi 2.8% investisiya yönəldilmişdir. Doğrudur, 2011-ci ildə emal sənayesinə investisiyanın həcmi artaraq tarixi maksimuma-15.8%-ə çatmış, mədənçıxarmada isə əksinə, bu dövrdə minimuma 60.4% enmişdir. Bu dövrdə investisiyaların enerji, qaz və buxar istehsalı (max. 2011-ci il, 14.3%), su təhcizatı və tullantıların emalı sahələrinə yönəldilməsi artmaqda davam etmişdir (9.5%). 2015- ci ildə isə mədənçıxarma sənayesinə investisiyaların 84.1%, emal sənayesinə 24.3%, enerji təhcizatına 3.3%, su infrastrukturuna 6.9% yönəldilmişdir.

Sənayenin sahələri üzrə xərclərin strukturuna nəzər saldıqda, bütövlükdə, sənaye üzrə 2005-ci ilə nisbətən 2015-ci ildə, təxminən 20% bəndi azalması müşahidə edilir. Bu özlüyündə yaxşı hesab edilə bilərdi, əmək haqqı və amortizasiya xərclərinə nibətən sair xərclərin daha çox artması müşahidə ediməsəydi. Məsələn, 2015-ci ildə sair xərclərin payı 28.5 %, əmək haqqı 12.2%, amortizasiya ayırmaları isə 13.1% olmuşdur. Eyni zamanda bu dövrdə neft sənayesində material xərcləri daha yavaş sürətlə azalmış, lakin sair xərclər 41.7%-dən 31.35%-ə qədər azalmışdır.

Emal sənayesində isə material xərcləri bu dövrdə, 77.3%-dən 43.7%-ə qədər azalmışdır. Amaortizasiya və əmək haqqı xərcləri demək olar ki,stabil olduğu halda, sair xərclər 8.6 %- dən 39%-ə qədər artmışdır.

# NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Aparılmış araşdırmaların nəticəsi olaraq aşağıdakılar kimi bir sıra nəticə və tövsiyələri formalaşdıra bilərik.

1. Qlobal iqtisadi məkanın formalaşdığı, istehsalın beynəlmiləlləşməsinin sürətlə dərinləşdiyi, iqtisadi münasibətlərdə geoiqtisadi yanaşmanın aktuallaşdığı, beynəlxalq rəqabətliliyin "iqtisadi resursa" çevirildiyi indiki şəraitdə, milli iqtisadiyyatın beynəlxalq rəqabətliliyi iqtisadi sistemin fəaliyyətinin səmərəliliyinin artırılması üçün vacib vasitə və mühüm qiymətləndirici göstərici hesab edilir.

Dünya inkişafının geoiqtisadi paradiqmasının hakim mövqelərə keçməsi şəraitində, beynəlxalq rəqabətqabiliyyətlilik, milli iqtisadiyyatların həyat qabiliyyətliliyini, geoiqtisadi məkandakı mövqelərin əlverişlilik dərəcəsini dolğun əks etdirən göstərici olaraq, "Azərbaycan 2020: gələcəyə baxış" Konsepsiyasında ifadə olunduğu kimi, uzunmüddətli dövr üçün dayanıqlı, inkişafı şərtləndirir. Bu baxımdan ölkənin sosial-iqtisadi həyatın bütün sferalarında effektiv, sistemli tədbirlərin reallaşdırılmasını tələb edən rəqabət qabiliyyətliliyin yüksəldilməsi üçün, milli rəqabətlilik amillərinin obyektiv qiymətləndirilməsi, o cümlədən, iqtisadiyyatın strukturunun inkişaf və harmonikliyi potensialının qiymətləndirilməsi vacibdir.

2. Qlobal inkişaf mərhələsində ölkələrin beynəlxalq rəqabət qabiliyyətliliyinin nisbi qiymətləndirilməsini ehtiva edən, Qlobal Rəqabətqabiliyyətlilik İndeksi, milli iqtisadiyyatın təmin edə biləcəyi məhsuldarlıq həddinin determinantları üzrə hesablanır və iqtisadi fəaliyyətin mürəkkəbliyi və yetkinliyi baxımından 3 əsas və 2 aralıq olmaqla, 5 inkişaf mərhələsinə uyğun olaraq təsnifləşdirir: amil əsaslı, effektivlik əsaslı və innovasiya əsaslı, 1-ci mərhələdən 2-ci mərhələyə və 2-ci mərhələdən 3-cü mərhələyə keçid mərhələləri. Belə metodika üzrə Azərbaycanın 2012-ci ildən mövqeyi investisiyalar mərhələsindən amillər mərhələsinə geriləmişdir ki, bu da iqtisadiyyatın təbii ehtiyatlardan asılılıq səviyyəsinin azalmaması ilə əlaqədardır. Davos DİF qiymətləndirmə metodikasının təhlili göstərir ki, seçilmiş meyarlar ölkələrin iqtisadi inkişaf səviyyəsini maksimum nəzərə almağa imkan verir. Metodikanın çatışmayan cəhəti isə, iqtisadi inkişafa mühüm təsir göstərən bir sıra göstəricilərin nəzərə alınmamasıdır. Məsələn, ***xarici ticarət, xarici investisiyalar, ölkə iqtisadiyyatının açıqlıq dərəcəsi göstəriciləri rəqabət qabilyyətliliyin müəyyən edilməsi zamanı çox az istifadə olunur.***

3. Davos DİF-in 2009-2016-cı illərdə "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"na görə, Azərbaycan MDB ölkələri arasında həmişə lider olmuşdur. Əsas subindekslər üzrə isə, 2012-ci ildə qlobal rəqabət qabiliyyətliliyinin baza şərtləri blokunun göstəricisinə görə Azərbaycan, Rusiyadan sonra ikinci, qalan illərdə isə birinci mövqedədir. İnnovasiyalar və biznes mühiti blokunun göstəricisinə görə ölkəmiz bütün bu dövr ərzində MDB ölkələri arasında birinci mövqeyini saxlayır. Effektivliyi artıran şərtlər blokunun göstəricilərinə görə isə Azərbaycan, Rusiya, Ukrayna və Qazaxıstandan sonra 4-cü, 2013-cü ildə isə Rusiya və Qazaxıstandan sonra 3-cü yerdə dayanır. Ölkəmizin beynəlxalq

rəqabətqabiliyyətliliyinin bütövlükdə yüksəlməsi “Makroiqtisadi mühit”, “Əmək bazarının effektivliyi” və “İnnovasiyalar” indikatorları hesabına baş vermişdir. Araşdırmalar göstərir ki, bu dövrdə ali təhsil və peşə hazırlığı, əmtəə bazarlarının effektivliyi, əmək bazarlarının effektivliyi, inkişaf etmiş maliyyə bazarları, mövcud texnologiyaların üstünlüklərində istifadə edə bilmək imkanları və bazarların ölçüsü çox vacib və cəmiyyət üçün əhəmiyyətli olmasına baxmayaraq, ölkəmiz bu istiqamətlərdə sonrakı illərdə də fərdi mövqeyini pisləşdirmişdir.

4. Makroiqtisadi mühit indikatoru üzrə ölkəmizin mövqeyi kifayət qədər yüksəkdir və bu renkinq yanaşmasının tətbiq edildiyi bütün son dövr ərzində ölkəmizin yekun mövqeyini şərtləndirən əsas parametr hesab edilə bilər. Lakin, bu göstəricinin pisləşmə dinamikası narahatlıq yaradır və ona görə də hesab edirik ki, bu parametri formalaşdıran amillərə və bir sıra digər məqamlara diqqət yetirilməsini zəruri hesab edirik. İlk növbədə bu meyarı təmin edən göstəricilərin ümumi yekuna paylarının müəyyənləşdirilməsində fikrimizcə qeyri-dəqiqlik vardır. Məsələn, Azərbaycanın bu göstərici üzrə mövqeyinin 2015-ci ildəki 10-cu yerdən 2016-cı ildəki 39-cu mövqeyə düşməsinin əsas səbəbkarı fikrimizcə inflyasiya və dövlət borcu göstəricilərinin kəskin pisləşməsidir. Bu göstəricilər isə daha çox monetar mahiyyət daşıyır və iqtsadi stabilliyin fiskal təminediciləri ilə nisbətən daha az qarşılıqlı təsirlərə malikdir. Eyni zamanda inteqral göstərici kimi ölkənin kredit reytinqinin aşağı volatilliyinin makroiqtisadi mühütin digər tərkib elementlərinin kəskin volatilliyi ilə uzlaşmaması belə qənaətə gəlməyə sövq edir ki, yekun qiymətləndirmədə monetar amillər daha böyük təsirliyə malikdir. Hesab edirik ki, bütövlükdə QRİ-nin dəyərləndirilməsində bu məqama xüsusi diqqət yetirilməsi vacibdir. Fikrimizcə transformasiya xarakterli iqtisadiyyata münasibətdə belə “monetarist” yanaşma ədalətli deyildir.

Bütövlükdə isə hesab edirik ki, bu indikatorun qiymətləndirilməsi yekunları da mahiyyətə təsir baxımından inamsızlıq yaradır. Belə ki, fikrimizcə, iqtisadi sistemin xarakteri və rəqabətliliyi baxımından çox güclü təsirləri olan “Məcmu vergi norması” (78), “Daxili bazarda rəqabətin intensivliyi”(115) kimi göstəricilər üzrə arzu olunmayan mövqeyə rəğmən , “Əmtəə bazarının effektivliyi“ indikatoru son illərdə yaxşılaşmaqdadır.

Azərbaycanın rəqabət qabiliyyətliliyi üçün ən problemli indikatorlar, bu dövrdə ənənəvi olaraq “Maliyyə bazarının yetkinliyi” (97-ci yer), “Ali təhsil və peşə hazırlığı” (78 yer) və “Səhiyyə və ibtidai təhsil” (75 yer) indikatorlarıdır. Fikrimizcə, inkişafın potensialı və onun perspektivləri üçün çox önəmli hesab olunan bu parametrlərin tezliklə yaxşılaşdırılması hökumətin diqqət mərkəzində olmalıdır. Bu indikator üzrə mövqenin aşağı olmasının əsas səbəbləri “Kredit götürmənin asanlığı” (101 yer), “Bankların etibarlılığı” (98 yer) və “Hüquqların müdafiəsi indeksi”(98 yer), “Qiymətli kağızların dövriyyəsinin tənzimlənməsi”(101yer), ”Uşaq ölümü”(101), “Gözlənilən ömür uzunluğu” (94), “Ali təhsillə əhatə olunma dərəcəsi” (94), “Məktəblərin idarə olunmasının keyfiyyəti” (89) və s. meyarlarıdır. Hesab edirik ki, sonuncu parametrlərin hər biri olduqca vacibdir və mövcud vəziyyət qənaətbəxş sayıla bilməz.

Beləliklə, Qlobal rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi üçün istifadə olunan meyarların təhlili göstərir ki, Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətliliyinin yüksəlməsinə mane olan əsas amillər səhiyyə, təhsil, bank–maliyyə və idarəetmə sahəsində formalaşmış xüsusiyyətlər və çatışmazlıqlardır.

5. Başlıca strateji məqsədi, davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və s. səciyyələnən inkişaf mərhələsinin formalaşması olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının realizasiyası nəticəsində, 2020-ci ildə Azərbaycanın rəqabət qabiliyyətli ölkə olmaqla BMT -nin İnsan İnkişafı üzrə təsnifatına əsasən "yüksək insan inkişafı" ölkə sıralanmasında yüksələcəyi nəzərdə tutulur. Konsepsiya çərçivəsində ölkə iqtisadiyyatının səmərəliliyə əsaslanan iqtisadiyyata çevrilməsi və innovasiyaların üstünlüyü ilə səciyyələnən mərhələyə keçidin təmin olunması hədəflənir. İqtisadi inkişaf sahəsində ən mühüm və qlobal hədəf, Azərbaycanda yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasıdır. Konsepsiyada bu hədəflərə nail olunması məqsədi ilə 3 istiqamət müəyyənləşdirilmişdir.

Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşmasının əsas hədəfləri və onların əldə olunması üçün nəzərdə tutulan tədbirlər***, özlüyündə müsbət hesab edilsə də, qarşılıqlı uyğunsuzluq müşahidə olunur.*** Beləki, dövlətin bu məqsədlə seçdiyi tədbirlər, *makroiqtisadi sabitliyi qorumaq, sərbəst rəqabəti təmin etmək və iqtisadiyyatın strukturunu təkmilləşdirmək səyləri*, yetkin bazar münasibətləri şəraitində onun iqtisadiyyata ciddi müdaxiləsi kmi yolverilməzdir. Digər tərəfdən maliyyə dayanıqlığının təmin edilməsində optimal makro-fiskal çərçivənin formalaşdırılması, inflyasiya hədəfinə uyğun pula tələbatın ödənilməsi kimi hədəflər, iqtisadi siyasətdə monetar amilin rolunun qabardılması və bu şəraitdə təbii olaraq fiskal amilin və ya real iqtisadiyyatın tələblərinin ikinci plana ötürülməsi ilə tamamlanır. ***Lakin, maliyyə dayanıqlığının təmin edilməsi, inflyasiya hədəfinə uyğun pula tələbatın ödənilməsi kimi mühüm keyfiyyət hallarının əldə olunmasında ən həlledici məqamı konkret tədbirlərin düzgün seçimidir.*** Konsepsiyada bu seçimin meyarları, kapitallaşma dərəcəsinin yüksəldilməsi və fond bazarı vasitəsilə cəlb olunan qeyri-inflyasiya mənşəli investisiya vəsaitlərindən istifadənin genişləndirilməsi kimi hədəflərin iqtisadi mahiyyəti və realizasiyası tədbirlərinin açıqlanması və əsaslandırılması verilməmişdir.

6. Müasir qlobal inkişaf trendləri sırasında mühüm əhəmiyyətə malik olan meyllərdən biri, iqtisadi fəaliyyətin səmərəliliyi və nəticəliliyinin qiymətləndirilməsinə ənənəvi yanaşmaların sürətli transformasiyasıdır. Elmi-texniki tərəqqinin bilavasitə nəticəsi olan iqtisadiyyatın vituallaşması, "bilik iqtisadiyyatı", "informasiya iqtisadiyyatı" kimi qlobal inkişaf çağırışları iqtisadi fəaliyyət və onun idarə olunması siyasətinin fəlsəfəsini və paradiqmasını dəyişir. Yeni yanaşmaların arzu olunmazlığını şərtləndirən amillərə gəldikdə isə, ilk növbədə iqtisadi inkişafın inersiyalılığı və kumilyativliyi, ETT-nin ekoloji tarazlığı kəskin pisləşdirməsi səbəblərindən bəşəri inkişafın maddi təminatına yaranan təhlükələri qeyd etmək gərəkdir. Ona görədə qlobal miqyasda ***iqtisadiyyatın humanitar xarakterinin gücləndirilməsi*** kimi paradoksal çağırışlar yaranmaqdadır.

7. Milli müstəvidə qlobal çağırışların adekvat qarşılanmasının təmin edilməsi məqsədi ilə yeni ***milli iqtisadi inkişaf paradiqmasının*** formalaşdırılması vacibdir. Yeni qlobal inkişaf mərhələsinin ən mühüm əlaməti, milli iqtisadi sistemlərin qarşılıqlı asılılıqlarının güclənməsi ilə paralel olaraq, ***iqtisadi müstəqilliyin əhəmiyyətli dərəcədə zəifləməsidir.*** Milli iqtisadi müstəqillliyin zəfləməsi iki istiqamədə baş verir: birinci istiqamət ***-istehsalın xarakteri ilə bağlıdır.*** İstehsalda ənənəvi təbii ehtiyatların "ETT məhsulları" ilə əvəzlənməsinin sürətlənməsinin, "dəyər zəncirində" daha əlverişli mövqeyə malik olan ölkələr üçün müqayisəli üstünlüklər yaratması sayəsində, BƏB-in formalaşmış modelinin dayanıqlığı sürətlə azalır. Ona görədə istehsal infrastrukturu daha çevik və texnoloji mobilliyi yüksək olan ölkələr aparıcı mövqeləri tutmaqla, digərlərini "haqlayıcı inkişaf" yoluna sürükləyir. İkinci istiqamət ***dünya iqtisadiyyatının "bütövləşməsi"*** meyli ilə bağlıdır. TMK-lar, inteqrasiya birlikləri və BİT-lərin qloballaşma pərdəsi altda faktiki olaraq iqtisadi məkanı bütövləşdirməsi, milli iqtisadi sistemlərin müstəqilliyinin ciddi daralmasına gətirir. Belə perspektivdə, fikrimizcə, ***Azərbaycan kimi, "kiçik iqtisadiyyatlı", zəngin resurslu, əlverişli geoiqtisadi mövqe və "əmək tutumlu mentalitetli" ölkələrin, qlobal çağırışları hədəf kimi yox, yönləndirici kimi*** qəbul etməsi çox vacibdir.

Beləliklə, yeni inkişaf mərhələsinin gözlənilən əsas trendinə rəğmən, ***Azərbaycanın perspektiv inkişaf paradiqması – təbii resurs inklüzivliyini ehtiva edən, "özünü inkişaf", konyuktur dəyişikliklərə adekvat və çevik reaksiya qabiliyyətli, makro səviyyəli idarətmə prinsipləri əsasında tənzimlənən, dayanıqlı, sosial strukturlaşmış iqtisadi sistemin formalaşması*** kimi olması məqsədəuyğun hesab edilir.

8. Yeni inkişaf paradiqmasını formalaşdıracaq iqtisadi siyasətinin ilk və mühüm istiqamətlərdən biri, iqtisadiyyatın strukturunun inkişaf şəraitinə və qlobal çağırışlara uyğun təkmilləşdirilməsidir. Milli iqtisadiyyatın rəqabətliliyinin yüksəldilməsini təmin edəcək struktur yenidən qurmanın -***sənayenin yeni qlobal texnoloji çağırışlar əsasında üstün inkişafı və rəqabət siyasəti əsasında əsasında rəqabətliliyin yüksəldilməsi*** kimi iki strategiyası arasında seçim edərkən yaxın və uzaq, birbaşa və dolayı təsirlərinin mümkünlüyünü nəzərə almaqla yanaşı, inkişafın ən mühüm determinantının sosial mahiyyət olmasını heç bir halda unutmaq olmaz. Yəni inkişafın sosial mahiyyətini onun sürətinə, rəqabətliliyiə müsbət təsirlərinə və s. qurban vermək olmaz. Dünya təcrübəsi göstərir ki, struktur yenidən qurmanın şərh olunmuş strategiyalarının realizasiyası baxımından, bu iki istiqamətin birgə tətbiqinə əsaslanmaqla klaster yanaşması daha yaxşı nəticələr verə bilər.

Müasir şəraitdə milli iqtisadiyyatda struktur dəyişiklərinin determinantları – inkişaf etmiş istehlak sektorunun formalaşdırılması, ictimai istehsalın struktur-texnoloji disbalanslılığının aradan qaldırılması, sahə və klasterlərdə investisiya resurslarının daha səmərəli istifadə olunması istiqamətlərinin müəyyənləşdirilməsi, onların yenidən təşkili və səmərəli restrukturizasiyası, sahibkarlıq sektorunun genişləndirilməsi, innovasiyaların kommersiyalaşdırılması hesab edilir.

9. **Doing Business 2010-2017** illərin sıralanmasında (183-190 ölkə) Azərbaycanın mövqeyi, ümumən ciddi pisləşməyə məruz qalmışdır. Bu beynəlxalq renkinq sisteminin

bütün qeyri-təkmilliyinə rəğmən, 3 il ərzində ölkəmiz 38-ci mövqedən 97-ci yerə düşmüşdür.*Yaranmış şərait,"Azərbaycan 2020: gələcəyə baxış"Konsepsiyasının "...2020-ci ildə Azərbaycanın mövqeyi, rəqabət qabiliyyətli ölkə olmaqla BMT -nin İnsan İnkişafı üzrə təsnifatına əsasən "yüksək insan inkişafı" ölkə sıralanmasında yüksələcəkdir..." kimi müəyyənləşdirilmiş və fikrimizcə, mühüm əhəmiyyətə malik olan strateji baxışlara adekvat deyil.* Digər tərəfdən, nəticəliliyə təsir edən göstəricilərin, formal mahiyyət daşıyan göstəricilərdən üstünlüyünü nəzərə aldıqda, renkinq sisteminin metodologiyasına münasibətdə, belə bir mülahizəni formalaşdıra bilərik ki, ***iqtisadi siyasətin qiymətləndirilməsində aparıcı və ya təsiredici dominantların dinamikasına önəm verilməsi vacibdir.***

10. **Avropa Yenidənqurma və İnkişaf Bankının təklif etdiyi** 2015-2016-cı illərdə MDB ölkələri üçün iqtisadiyyatın sektorlar üzrə sənayeləşmə prizmasından tranzitivlik göstəricilərinin dinamikasına əsasən ***Azərbaycanın mövqeyini heç də qənaətbəxş hesab etmək olmaz. Beləki, son 10-15 ildə dövlətin bəyan olunmuş iqtisadi siyasətinin hədəflərini, ölkəmizdə iqtisadi inkişafın yetərincə yüksək olması və neft gəlirlərinin böyük axınlarının iqtisadiyyatın transformasiyası üçün yaratdığı münbit maliyyə şəraitini nəzərə aldıqda, Azərbaycanın qeyd olunan göstəricilər üzrə vəziyyətini nəinki bütövlükdə, hətta MDB ölkələri arasında tutduğu yer baxımından təbii ki, qənaətbəxş hesab etmək olmaz.***

11. **Dünya Bankı İnstitutunun** 2015-ci il MDB ölkələrində "bilik iqtisadiyyatının" formalaşması üzrə analtik qiymətləndirmələri, bu iqtisadiyyatlarda texnoloji yenidən qurmanın mövcud potensialı və son illərdə aparılmış müvafiq siyasətin nəticəliliyi haqqında fikir söyləməyə imkan verir. Bilik İqtisadiyyatı İndeksi üzrə Azərbaycan, hətta MDB ölkələri arasında son dərəcə qeyri-qənaətbəxş mövqeyi (81 yer) son 20 ildə, dəyişməz qalmışdır. **Belə vəziyyət "Azərbaycan 2020: Gələcəyə baxış" konsepsiyasının məqsədlərinə və hədəflərinə müvafiq deyildir.** Bilik İqtisadiyyatı İndeksi istiqamətləri üzrə göstəricilər də ölkəmiz üçün yaxşı hesab edilə bilməz. Doğrudur iki alt göstərici üzrə-təhsil və İKT indeksi üzrə bizim mövqeyimiz 2012-ci ildə orta dünya səviyyəsini üstələmişdir. **Lakin hesab edirik ki, bu üstünlükləri yetərli saymaq olmaz.**

12. Araşdırmalarımız göstərir ki, Azərbaycan iqtisadiyyatında ümumi daxili məhsul istehsalının strukturunda son 10 ildə ciddi dəyişiklər baş verməmişdir. Doğrudur mədənçıxarma sənayesinin payı 42.2%-dən 26.4%-ə qədər azalmış, tikinti, ticarət və s. kimi sahələrin payı isə artmışdır. Lakin bu dəyişikləri, keyfiyyəti dəyişdirə biləcək hesab etmək olmaz. Azərbaycan iqtisadiyyatında sənayenin çağdaş inkişaf xarakeristkasını müstəqillik dövründə sənayenin strukturunun dəyişməsi prizmasından qiymətləndirməyi məqsədə uyğun hesab edirik. 1991-ci ildə bütün sənaye məhsulunun cəmi 7.2% mədənçıxarma sənayesinin (o cümlədən neft-qaz hasilatının payı- 6.8%) payına düşdüyü halda, 2015-ci ildə 67 % olmuşdur. Həmin dövrdə müvafiq olaraq emal sənayesinin payı 87.9%-dən azalaraq, 2015-ci ildə 24.3% təşkil etmişdir. Lakin nəzərə almaq vacibdir ki, emal sənayesinin payının artımı neft emalının payının 1991-ci ildəki 8.4%-dən 2015-ci ildə 10.1%-ə qədər artması ilə bağlıdır. Diqqət çəkən məqamlardan biri də onunla bağlıdır ki, emal sənayesində 1991-ci ildə 5.1% paya malik olan kimya sənayesinin xüsusi çəkisi 2010-cu ildəki tarixi 0.45% minumumdan sonra, 2015-ci ildə 1.4

%-ə qədər artmışdır. Lakin müstəqilliyimizin ilk illərində böyük çəkiyə malik olan mebel sənayesi və maşın və avadanlıqların istehsalının həcmi azalaraq 2015-ci ildə cəmisi, 0.2 və 0.8% olmuşdur.

Bu dövrdə sənayeyə yönəldilmiş investisiyaların strukturunda da adekvat mənzərə vardır. Belə ki, 2005-ci ildə sənayeyə yönəldilmiş ümumi investisiyanın 89.3% mədənəçıxarma sənayesinə və o cümlədən 86.3%-i bilavasitə neft-qaz hasilatı sahəsinə yönəldilmişdir. Emal sənayesinə isə cəmisi 2.8% investisiya yönəldilmişdir. 2011-ci ildə emal sənayesinə investisiyanın həcmi artaraq tarixi maksimuma- 15.8% çatmış, mədənçıxarmada isə əksinə, bu dövrdə minimuma 60.4% enmişdir. Bu dövrdə investisiyaların enerji, qaz və buxar istehsalı, su təhcizatı və tullantıların emalı sahələrinə yönəldilməsi artmaqda davam etmişdir (9.5%). 2015-ci ildə isə mədənçıxarma sənayesinə investisiyaların 84.1%, emal sənayesinə 24.3%, enerji təhcizatına 3.3%, su infrastrukturuna 6.9% yönəldilmişdir.

Sənayedə xərclərin 2005–ci ilə nisbətən 2015-ci ildə, təxminən 20% bəndi azalması müşahidə edilir. Bu özlüyündə yaxşı hesab edilə bilərdi, əmək haqqı və amortizasiya xərclərinə nibətən sair xərclərin daha çox artması müşahidə ediməsəydi. Bu dövrdə neft sənayesində material xərcləri daha yavaş, emal sənayesində isə sürətlə, 77.3%-dən 43.7%-ə qədər azalmışdır. Amortizasiya və əmək haqqı xərcləri demək olar ki, stabil qaldığı halda, sair xərclər 8.6 %- dən 39%-ə qədər artmışdır.

**Yekun olaraq,**

***Azərbaycan iqtisadiyyatının strukturunun rəqabətqabiliyyətlilik potensialının, "Azərbaycan -2020: Gələcəyə baxış" strateji inkişaf Konsepsiyasının prinsip və hədəfləri prizmasından, müstəqillik dövründə milli sənayenin strukturunun transformasiyası və beynəlxalq renkinklər üzrə qiymətləndirmələri əsasında, milli iqtisadiyyatın müvafiq potensialının indiki halda yüksək olmadığını təssüflə qeyd edirik. Ona görədə, müasir qlobal çağırışlar fonunda, Azərbaycanın təbii resurs inklyuzivliyini ehtiva edən, "özünü inkişaf" qabiliyyətli, bazar prinsipləri əsasında tənzimlənən, dayanıqlı, sosial strukturlaşmış iqtisadi sisteminin formalaşmasını hədəfləyən edən inkişaf paradiqmasının formalaşdırılması məqsədəuyğun hesab edilir.***

# İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycanın statistik göstəriciləri, Dövlət Statistika Komitəsi, Bakı, 2016
2. Milli hesablar sistemi, Dövlət Statistika Komitəsi, Bakı, 2015
3. "Azərbaycan 2020: gələcəyə baxış" Strateji İnkişaf Konsepsiyası, Bakı, 2012
4. World Bank Institute & Knoema Data Base
5. World Economic Forum, Global Competitiveness Reports (2011-2016)
6. EBRD, Transition Report 2015-2016
7. http://hrmars.com/hrmars papers/ Knowledge Economy Index (KEI) 2012 Rankings for Islamic Countries and Assessment of.pdf
8. Dahmen E. Entrepreneurial Activity and the Development of Swedish Industry, 1919-1939. Stockholm, 1950.
9. Mattsson L. G. Management of Strategic Change in a "Markets-as-Networks" Perspective. In the Management of Strategic Change. Ed. by Fndrew M. Pettigrew. Oxford, N. Y.,1987
10. Feldman V. P., Audretsch D.B. Innovation in Cities: Science based Diversity, Specialization and Localized Competition-European Economic Review, № 43, 1999, P. 409-429.